

Doğma, canım-varlığım qədər sevdiyim
Azərbaycanım mənim qibləgahımdır

100 ilin qəzeti

ŞƏRQ QAPISI

Sayı: 32 (24.518)

22 avqust 2026-cı il, şənbə

www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi


# 17-ci səfər

## Naxçıvanın dəyişən siması



*102 illik muxtariyyət tarixinin inkişaf mərhələsinə səfərlərin pəncərəsindən baxış*

2004-cü ilin mayından 2026-cı ilin avqustuna qədər Prezident İlham Əliyevin Naxçıvana səfərlərinə nəzər saldıqda təkcə dövlət başçısının qədim diyara səfərlərinin xronologiyasını görmürük. Qarşımızda Naxçıvanın son iyirmi iki il ərzində keçdiyi inkişaf yolunun mənzərəsi canlanır. Bu səfərlərin hər biri öz dövrünün əsas ehtiyaclarını, qarşıda duran vəzifələri və gələcək üçün müəyyənləşdirilən prioritetləri əks etdirib. Bir vaxt hava limanı, yol, su və enerji əsas gündəm idisə, sonrakı mərhələdə sənaye, sərhəd-keçid məntəqələri, regional əlaqələr, Türk dünyası ilə münasibətlər və sosial infrastruktur ön plana çıxıb. Daha sonra bərpa olunan enerji, müasir nəqliyyat, rəqəmsal idarəetmə, sosial xidmətlər və şəhərsalma inkişaf gündəliyinə daxil olub. Bu gün isə həmin istiqamətlər bir-birindən ayrı deyil. Onlar Naxçıvanın yeni inkişaf modelinin müxtəlif elementlərinə çevrilib.

Prezident İlham Əliyev avqustun 11-də Naxçıvanda Azərbaycan Televiziyasına müsahibəsində də səfərlərinin bu ardıcıllığına diqqət çəkərək deyib: *"Naxçıvan Muxtar Respublikası hərtərəfli inkişaf edir. Qeyd etdiyiniz kimi, mən Prezident kimi 17-ci dəfədir ki, Naxçıvana səfər edirəm və hər səfərimin də böyük mənası və gözəl nəticələri vardır".*

Bu fikir, əslində, son iyirmi iki ilin mənzərəsini bir cümlədə ifadə edir. Səfərlərin hər biri yalnız müəyyən obyektlərin açılışı və ya tədbirlərdə iştirakla məhdudlaşmayıb, Naxçıvanın qarşısında duran konkret məsələlərin həllinə və yeni inkişaf mərhələsinin formalaşmasına xidmət edib.

*İnfrastrukturdan inkişaf fəlsəfəsinə*

Naxçıvanın dəyişən simasını anlamaq üçün, ilk növbədə, yolun haradan başladığına baxmaq lazımdır. 2004-cü ildə Naxçıvan Beynəlxalq Hava Limanının və Əlillərin Bərpa Mərkəzinin istifadəyə verilməsi həmin dövrün iki mühüm prioritetini ifadə edirdi: xarici aləmlə əlaqələrin genişləndirilməsi və insan amilinə yönəlmiş sosial infrastrukturun yaradılması.

Sonrakı illərdə bu xətt yolların, su təsərrüfatının, enerji obyektlərinin və digər infrastrukturun inkişafı ilə genişləndi. Naxçıvan-Sədərək və Naxçıvan-Culfa avtomobil yolları, Naxçıvan-Şahbuz-Batabat magistralı, su anbarları, sutəmizləyici qurğular və elektrik stansiyaları bir-birini tamamlayan layihələr kimi qədim diyarın iqtisadi və sosial həyatının əsaslarını möhkəmləndirdi. Qarşıdakı mərhələdə isə yaşayış məntəqələrinin yol probleminin həlli üçün yüzlərlə kilometr yolun tikintisi və əsaslı təmiri nəzərdə tutulur.

Beləliklə, vaxtilə əsas məqsəd infrastruktur çatışmazlıqlarını aradan qaldırmaq idisə, bu gün həmin infrastruktur Naxçıvanın iqtisadi və sosial inkişafının hərəkətverici qüvvəsinə çevrilir.

ardı 2-ci səhifədə

# Prezident İlham ƏLİYEV:

***"Naxçıvan, eyni zamanda Azərbaycana bir çox görkəmli şəxsiyyətlər bəxş edib. Naxçıvan Azərbaycan xalqına dahi şəxsiyyət Heydər Əliyev kimi Ulu Öndər bəxş edib. Yəni bu bölgənin zəngin tarixi, bu bölgədə yaşayan insanların mərdliyi, doğma Vətənə bağlılığı və eyni zamanda Naxçıvanın strateji yerləşməsi və imkanları, burada icra olunan və olunacaq layihələr bu gün təkcə Azərbaycan üçün deyil, – halbuki birinci növbədə, Azərbaycan üçün, – geniş coğrafiya üçün böyük əhəmiyyət kəsb edir."***


Naxçıvanın yeni inkişaf mərhələsi Prezident İlham Əliyevin səfəri və böyük hədəflər 3
Əsrləri birləşdirən memarlıq ruhu 5
Vətənə və xalqa xidmət nümunəsi 6
Naxçıvanda enerji təhlükəsizliyi gücləndirilir: yeni generasiya gücləri ixrac imkanlarını artıracaq – reportaj 7
Naxçıvanda şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 68 mənzil təqdim edilib 9

# 17-ci səfər

## Naxçıvanın dəyişən siması

(əvvəli 1-ci səhifədə)

***Enerji təminatından "yaşıl enerji" ixracına***

Naxçıvanın inkişaf tarixində enerji ayrıca bir xətt təşkil edir. 2005-ci ildə Heydər Əliyev su anbarının istifadəyə verilməsi və təbii qazın verilməsinin bərpa olunması enerji təminatında mühüm mərhələ idisə, 2006-cı ildə Modul Elektrik Stansiyası və Qaz-Turbin Elektrik Stansiyasının istifadəyə verilməsi artıq enerji istehsalının gücləndirilməsi mərhələsinin başlanğıcını göstərirdi. Sonrakı illərdə Biləv Su Elektrik Stansiyası kimi layihələr Naxçıvanın öz enerji potensialından istifadəsini genişləndirdi. 2015-ci ildə Naxçıvan Günəş Elektrik Stansiyasının istifadəyə verilməsi isə bu xəttə yeni istiqamət əlavə etdi. Bu gün həmin istiqamət daha böyük miqyas alıb. Naxçıvan artıq yalnız enerji təminatının sabitliyini deyil, bərpa olunan enerji mənbələri hesabına yeni enerji modelinin formalaşdırılmasını hədəfləyir. "Şəms 1" və "Qərbi Üfüq" Günəş Elektrik stansiyalarının inşası bunun konkret nümunəsidir.

Ümumi gücü 50 MVt olan bu layihələr istismara verildikdən sonra böyük həcmdə elektrik enerjisi istehsal etməklə yanaşı, karbon emissiyalarının və təbii qaz sərfiyyatının azalmasına da imkan yaradacaq. Enerji sisteminin rəqəmsallaşdırılması, Regional Rəqəmsal İdarəetmə və SCADA mərkəzlərinin yaradılması, yeni yarımstansiyaların tikilməsi və 400/330/110 kV-luq "Naxçıvan çevirici qovşaq" yarımstansiyasının yaradılması istiqamətində görülən işlər isə enerji təhlükəsizliyinə artıq daha kompleks yanaşmanın formalaşdığını göstərir.

Bir vaxt enerji təminatının bərpası əsas məsələ idisə, bu gün Naxçıvanın bərpa olunan enerji istehsal edən və gələcəkdə enerji ixrac edən məkana çevrilməsi perspektivindən danışılır. Bu sadəcə, enerji sektorundakı dəyişiklik deyil, bu, inkişaf modelinin dəyişməsidir.

***Sərhəd mövqeyindən regional üstünlüyə***

Naxçıvanın coğrafi mövqeyi həmişə onun həm üstünlüyü, həm də xüsusi diqqət tələb edən amili olub. 2007-ci ildə Şahtaxtı-Poldəşt sərhəd-keçid məntəqəsinin istifadəyə verilməsi bu coğrafiyanın əlaqə imkanlarını genişləndirən mühüm hadisələrdən biri idi. 2008-ci ildə Azərbaycan-Türkiyə əlaqələrinin Naxçıvanda yüksək səviyyədə nümayiş etdirilməsi, 2009-cu ildə Türk dünyasının dövlət başçılarının IX Zirvə Görüşünün burada keçirilməsi Naxçıvanın regional və beynəlxalq əhəmiyyətini daha da artırdı. 2023-cü ildə İğdır-Naxçıvan qaz kəmərinin təməlinin qoyulması isə ələqələrin enerji ölçüsünü ön plana çıxardı.

Bu gün Naxçıvana yalnız Azərbaycanın əsas ərazisindən coğrafi baxımdan ayrı düşmüş ərazi kimi yanaşmaq kifayət deyil. Onun mövqeyi Azərbaycan-Türkiyə münasibətləri, enerji, nəqliyyat və gələcək regional bağlantılar baxımından mühüm üstünlükdür. Başqa sözlə, coğrafi ayrılıq yaradan sərhədlər tədricən yeni əlaqə imkanlarının keçidiyi məkana çevrilir.

***Yolun o biri üzü – sənaye və aqrar inkişaf***

Naxçıvanın iqtisadi inkişafında yolların xüsusi əhəmiyyəti var. Lakin yolun özü son məqsəd deyil. Onun əhəmiyyəti iqtisadi fəallığı hərəkətə gətirməsindədir. Bu gün Naxçıvan Sənaye Parkının yaradılması iqtisadiyyatın şaxələndirilməsi və yeni istehsal imkanlarının formalaşdırılması üçün daha geniş perspektiv açır. Eyni zamanda Naxçıvanın inkişafında kənd təsərrüfatı xüsusi yer tutur. 2026-cı ildə təsdiq edilmiş su ehtiyatlarından səmərəli istifadəyə dair Tədbirlər Planı çərçivəsində su infrastrukturunun təkmilləşdirilməsi, artezian quyularının qazılması, müasir suvarma sistemlərinin qurulması və suvarılmayan torpaqların istifadəyə verilməsi nəzərdə tutulur. Bu addımların mahiyyəti yalnız su probleminin həlli deyil. Məqsəd əkin sahələrini genişləndirmək, məhsuldarlığı artırmaq, əkin strukturunu şaxələndirmək və kənd təsərrüfatı məhsullarının emalını inkişaf etdirməkdir. "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nda nəzərdə tutulan aqrar modernləşmə, intensiv istehsala keçid və ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi də bu xəttin davamıdır. Beləliklə, Naxçıvanda kənd təsərrüfatına münasibət də dəyişir: ənənəvi istehsaldan daha məhsuldar, texnoloji və emala əsaslanan modelə keçid hədəflənir.

***İnkişafın mərkəzində insan***

Naxçıvanın inkişaf yolunun mühüm göstəricilərindən biri də insan amilinə münasibətin dəyişməsidir. İlk səfərlərdə istifadəyə verilən sosial obyektlərdən başlayaraq sonrakı illərdə təhsil, səhiyyə, sosial müdafiə və digər xidmət infrastrukturlarının genişləndirilməsi bu istiqamətin davamlı xarakter daşıdığını göstərdi.

2026-cı ildə Naxçıvan Regional DOST Mərkəzinin fəaliyyətə başlaması isə sosial xidmətlərdə yeni mərhələnin göstəricisidir. Müasir inkişaf modelində insan yalnız xidmət alan tərəf deyil. Onun həyat keyfiyyəti, məşğulluğu, sosial rifahı və gündəlik rahatlığı inkişafın əsas nəticə göstəricilərinə çevrilir.







***Naxçıvan şəhərinin yeni siması***

Dəyişiklik ən aydın şəkildə şəhər mühitində də görünür. İllər ərzində formalaşan yol, su, enerji və digər infrastruktur bu gün daha müasir şəhər idarəçiliyi ilə tamamlanır. Elektrik mühərrikli avtobusların istifadəyə verilməsi, rəqəmsal dispetçer və monitorinq sisteminin yaradılması, bank kartları, QR kod, "Apple Pay" və "Google Pay" vasitəsilə ödəniş imkanlarının təmin edilməsi Naxçıvan şəhərində ictimai nəqliyyatın yeni standartlara uyğunlaşdırıldığını göstərir. Bu layihənin icrası ilə Naxçıvan şəhərində 9 marşrut xətti üzrə il ərzində 4,5 milyon sərnişinə yüksək səviyyədə xidmət göstərilməsi nəzərdə tutulub. Şəhərlərarası və rayonlararası nəqliyyat üçün 217 müasir avtobusun alınmasının nəzərdə tutulması isə regionların bir-biri ilə əlaqəsinin gücləndirilməsinə imkan verəcək.

Bütün bu proseslərin uzunmüddətli perspektivini isə "Naxçıvan şəhərinin 2044-cü ilədək inkişafına dair Baş Planı" müəyyənləşdirir. Bu, Naxçıvanın yalnız bu gününü deyil, növbəti onilliklərini düşünən şəhərsalma yanaşmasıdır.

***Keçmişi qoruyaraq gələcəyi qurmaq***

Naxçıvanın dəyişən siması yalnız yeni obyektlərlə ölçülmür. Bu qədim diyarın inkişaf modelində tarix və müasirlik bir-birini tamamlayır. Akademik Yusif Məmmədəliyevin ev-muzeyinə göstərilən diqqətdən Möminə xatun türbəsinin bərpasına qədər həyata keçirilən işlər göstərir ki, inkişaf keçmişdən imtina etmək deyil. Əksinə, tarixi-mədəni irs müasir Naxçıvanın kimliyinin əsas dayaqlarından biri kimi qorunur.

Şəhərin gələcəyi planlaşdırılarkən onun tarixi simasının da nəzərə alınması məhz bu yanaşmanın ifadəsidir. İnkişafın məzmunu yalnız yeni binalar, yollar və istehsal müəssisələri ilə deyil, milli kimliyin qorunması ilə də müəyyənləşir.

***12 avqust Sərəncamı – yeni mərhələnin çərçivəsi***

Prezident İlham Əliyevin 12 avqust 2026-cı il tarixli "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında" Sərəncamı bütün bu istiqamətləri vahid inkişaf çərçivəsində birləşdirir. Sərəncamda Naxçıvanın qədim tarixi, zəngin mədəniyyəti, dövlətçilik ənənələri və yüksək potensialı ilə Azərbaycanın iqtisadi, siyasi və mədəni həyatında xüsusi yer tutduğu vurğulanır. Sənəddə sosial-iqtisadi inkişafın sürətləndirilməsi, infrastruktur təminatının və sosial xidmətlərin keyfiyyətinin yüksəldilməsi, məşğulluğun və əhalinin rifahının yaxşılaşdırılması ilə bağlı mühüm tədbirlər müəyyənləşdirilir. Bu baxımdan, Sərəncamı yalnız yeni tədbirlərin siyahısı kimi qiymətləndirmək düzgün olmaz. Bu sənəd əvvəlki illərdə formalaşmış inkişaf xəttinin yeni mərhələdə daha sistemli şəkildə davam etdirilməsini ifadə edir. Enerji, su, yol, sənaye, kənd təsərrüfatı, təhsil, sosial xidmət və şəhərsalma artıq bir-birindən ayrı sahələr deyil. Onlar Naxçıvanın gələcək inkişaf modelinin bir-birini tamamlayan istiqamətləridir.

***Səfərlərin göstərdiyi əsas həqiqət***

Əslində, burada əsas sual Prezident İlham Əliyevin Naxçıvana neçə dəfə səfər etməsi deyil. Əsas sual budur: bu səfərlər ərzində Naxçıvan necə dəyişib? Cavab səfərlərin özündə deyil, onların yaratdığı nəticələrdə görünür. Hava limanından yollara, enerji təminatından enerji istehsalına, sərhəd-keçid məntəqələrindən regional bağlantılara, sənaye müəssisələrindən Sənaye Parkına, ilk Günəş elektrik stansiyasından yeni "yaşıl enerji" layihələrinə, sosial obyektlərdən DOST Mərkəzinə, ənənəvi nəqliyyatdan elektrik avtobuslarına qədər uzanan inkişaf xətti Naxçıvanın dəyişən simasını göstərir. Lakin bu dəyişiklik yalnız bu günün mənzərəsi ilə məhdudlaşmır. Prezident İlham Əliyevin avqustun 11-də Azərbaycan Televiziyasına verdiyi müsahibə Naxçıvanın qarşıdakı inkişaf mərhələsinə dair daha geniş baxış ortaya qoydu. Dövlət başçısının sözləri ilə desək: ***"Daha çox iş yerləri açılacaq, iqtisadi fəallıq artacaq və Naxçıvan deyə bilərəm ki, əvəzolunmaz nəqliyyat mərkəzlərinin birinə çevriləcəkdir".*** Bu fikir Naxçıvanın inkişaf tarixində yeni məntiqi mərhələnin konturlarını göstərir. Çünki artıq söhbət yalnız mövcud infrastrukturun təkmilləşdirilməsindən getmir. Nəqliyyat bağlantılarının genişlənməsi, enerji istehsalının artması, sənaye potensialının gücləndirilməsi, kənd təsərrüfatının modernləşdirilməsi, şəhər mühitinin yenilənməsi və sosial xidmətlərin müasirləşdirilməsi bir-birini tamamlayan böyük inkişaf sisteminin hissələrinə çevrilir. Əgər əvvəlki mərhələdə əsas məqsəd Naxçıvanın infrastruktur əsaslarını yaratmaq idisə, bu gün həmin əsasların üzərində yeni iqtisadi imkanlar, "yaşıl enerji", müasir şəhər, rəqəmsal idarəetmə və regional bağlantılar sistemi qurulur. Beləliklə, dəyişən yalnız Naxçıvanın görünüşü deyil. Dəyişən Naxçıvanın imkanları, inkişaf gündəliyi və gələcəyə baxışıdır. 102 illik muxtariyyət tarixinin bu mərhələsində qədim diyar yeni perspektivlərin astanasındadır. Səfərlərin yaratdığı mənzərəyə bütöv şəkildə baxanda isə aydın görünür ki, hər səfər bu böyük inkişaf yolunun müəyyən bir məqamını tamamlayıb.

17-ci səfər bir inkişaf yolunun ayrı-ayrı məqamlarıdır. Həmin yolun adı isə dəyişən Naxçıvandır.

**Rəmzi TAHİRLİ**

# Naxçıvanın yeni inkişaf mərhələsi

## Prezident İlham Əliyevin səfəri və böyük hədəflər

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin avqustun 11-də Naxçıvana 17-ci səfəri respublikamızın siyasi, iqtisadi və sosial həyatında mühüm hadisəyə çevrildi. Səfər zamanı Prezident İlham Əliyevin iştirakı ilə həyata keçirilən açılış və təməlqoyma mərasimləri göstərdi ki, qədim Azərbaycan yurdu Naxçıvanın inkişafı, yüksəlişi və təhlükəsizliyi hər zaman ölkə rəhbərliyinin xüsusi diqqət mərkəzindədir. Bu həm də muxtar respublikanın inkişafının sürətli, davamlı və dinamik olduğunun əyani göstəricisidir.

Dövlətimizin başçısının Azərbaycan Televiziyasına müsahibəsində səsləndirdiyi fikirlər Naxçıvan Muxtar Respublikasının Azərbaycanın gələcək inkişaf hədəflərindəki roluna işıq saldı. Müsahibədə vurğulanan məqamlar bir daha göstərdi ki, yeni reallıqlarda Naxçıvanın strateji mövqeyi, iqtisadi gücü və inteqrasiya imkanları keyfiyyətcə tamamilə yeni bir mərhələyə qədəm qoyur. Naxçıvan Vətən müharibəsindən sonra yaranmış yeni reallıqlar şəraitində Azərbaycanın ümumi inkişaf perspektivində xüsusi rol oynayan, regional dinamikanı və geoiqtisadi xəritəni müəyyən edən strateji bölgədir. Şübhəsiz, Naxçıvanın bugünkü uğurlarının, iqtisadi dayanıqlılığının və hərbi təhlükəsizliyinin bünövrəsində Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasəti dayanır. Ümummilli Liderin Naxçıvana diqqət və qayğı siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla, layiqincə və dövrün tələblərinə uyğun olaraq yeni məzmunda davam etdirilir. Dövlətimizin başçısının təsdiq etdiyi "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" bu siyasətin inzibati və iqtisadi mexanizmini təşkil edir. Proqram çərçivəsində idarəetmədə şəffaflığın artırılması, institusional islahatların dərinləşdirilməsi və muxtar respublikanın iqtisadi potensialının tam gücü ilə işə salınması təmin edilir. Naxçıvanın hər bir uğuru bu tarixi varisliyin, sistemli islahatların və məqsədyönlü strategiyanın məntiqi təzahürüdür.

Bütün iqtisadi yüksəlişin və sosial layihələrin uğurlu icrasının təməlində etibarlı təhlükəsizlik amili dayanır. Dövlətimizin başçısı Azərbaycan Televiziyasına müsahibəsində Naxçıvanın təhlükəsizlik amilini və hərbi potensialını xüsusi vurğulayaraq bildirdi ki, Naxçıvanda onun Sərəncamı ilə Əlahiddə Ümumqoşun Ordu yaradılıb. Dövlətimizin başçısı: ***"Bu ordu Azərbaycan Silahlı Qüvvələrinin ayrılmaz tərkib hissəsidir. Ancaq Naxçıvanın spesifikası, coğrafiyası, Azərbaycanla, Azərbaycanın əsas hissəsi ilə coğrafi bağlantısının olmaması, əlbəttə ki, bu diyarın – muxtar respublikanın təhlükəsizliyinə daha böyük diqqət göstərməyimizə gətirib çıxardı və bu, daim belədir. Ona görə bu, birinci şərtdir. Bu gün qeyd etdiyim kimi, Azərbaycan Silahlı Qüvvələri bölgədə söz sahibidir. O cümlədən Naxçıvanda hərbi potensial gündən-günə gücləndirilir və gücləndiriləcək".*** Göründüyü kimi, muxtar respublikanın təhlükəsizliyinin möhkəmləndirilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi bu gün də uğurla davam etdirilir.

Naxçıvanın strateji mövqeyi, burada icra olunan və nəzərdə tutulan layihələr təkcə Azərbaycan üçün deyil, eyni zamanda geniş coğrafiya üçün böyük əhəmiyyət kəsb edir. Naxçıvanın timsalında regionda yeni nəqliyyat dəhlizlərinin yarandığı aydın görünür. Azərbaycanın əsas hissəsini onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanla birbaşa birləşdirmək xalqımızın çoxdankı arzusu olub. Dövlətimiz bu ali hədəfə doğru inamla, planlı şəkildə və çox böyük məharətlə addımlayıb. Zəngəzur dəhlizinin reallaşması, eyni zamanda Qars-İğdır-Aralıq-Dilucu-Naxçıvan dəmir yolu xəttinin inkişafı muxtar respublikanı regionun dünyaya açılan mühüm qapısına, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat marşrutlarının, Orta Dəhlizin strateji düyün nöqtəsinə çevirəcək. Prezident İlham Əliyev müsahibəsində Zəngəzur dəhlizinin tarixi əhəmiyyətini belə bəyan edib: ***"Nəticə etibarilə, 2025-ci il avqustun 8-də tarixi Vaşinqton Zirvə Görüşündə bu məsələ öz həllini tapdı. TRIPP adını daşıyan bu layihənin icrasına artıq start verilmişdir. Bu yaxınlarda, üç gün bundan qabaq – avqustun 8-də Prezident Trampla söhbət əsnasında bu məsələyə də toxunuldu və hər iki tərəf əminliyini vurğuladı ki, bu önəmli nəqliyyat layihəsi mütləq və tezliklə icra ediləcək".***





Muxtar respublika üçün mühüm məsələlərdən biri təhlükəsizlik və enerji müstəqilliyi idi. Dövlətimizin həyata keçirdiyi ardıcıl tədbirlər nəticəsində Naxçıvanın müdafiə potensialı ən yüksək səviyyəyə qaldırıldı və təhlükəsizlik məsələləri tam həll olundu. Eyni zamanda vaxtilə qaz və elektrik təchizatından məhrum olan Naxçıvanın enerji təhlükəsizliyi də etibarlı şəkildə təmin edildi. Bu gün isə tamamilə yeni bir mərhələ başlayır. Artıq Naxçıvan öz daxili ehtiyaclarını ödəməklə yanaşı, enerjinin ixracı ilə məşğul olacaq. Prezident İlham Əliyevin vurğuladığı kimi, Naxçıvan, o cümlədən Şərqi Zəngəzur və Qarabağ vahid konsepsiya əsasında inkişaf etməlidir. Dövlətimizin başçısı Naxçıvanın azad olunmuş ərazilərlə vahid konsepsiya əsasında inkişafını və idarəetmə modelini belə xarakterizə edib: ***"Bütövlükdə, bunu mən artıq həm bəyan etmişdim və həm də biz bunu artıq strukturlaşdırdıq ki, Naxçıvan, azad olunmuş ərazilər – Şərqi Zəngəzur, Qarabağ vahid konsepsiya əsasında inkişaf etməlidir... Naxçıvanda Qarabağ və Şərqi Zəngəzurdakı kimi idarəetmə üsuli-idarəsini yaratmaqla faktiki olaraq biz bu üç bölgəni inzibati nöqteyi-nəzərindən də birləşdiririk. Təbii ki, Naxçıvan Muxtar Respublika statusu qalmaq şərti ilə, ancaq idarəetmə qaydaları təkmilləşməlidir".***

Bu bölgələrin həm nəqliyyat, həm də "yaşıl enerji" potensialı Azərbaycanın ümumi iqtisadi və ekoloji hədəflərinin ana xəttini təşkil edir. Günəş və külək elektrik stansiyalarının tikintisi, su elektrik resurslarının bərpası Naxçıvanı ölkəmizin "yaşıl enerji" zonasına və Türkiyə vasitəsilə Avropaya elektrik enerjisi ixrac edən əsas mərkəzlərdən birinə çevirir.

Naxçıvanın gələcək iqtisadi mənzərəsində ticarət, logistika, kənd təsərrüfatı və turizmin inkişafı xüsusi yer tutur. Muxtar respublikada əlverişli biznes mühitinin dəstəklənməsi, gömrük və vergi güzəştlərini nəzərdə tutan Azad İqtisadi Zonanın və ticarət habının formalaşdırılması yerli və xarici investisiyaların cəlb edilməsinə güclü təkan verir. Naxçıvanın ekoloji təmiz kənd təsərrüfatı məhsulları və "Badamlı", "Sirab" kimi mineral suları brend olaraq xarici bazarlara çıxış imkanlarını genişləndirir. Bu böyük hədəflərə çatmaq üçün Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikasının 2026-2027-ci illərdə sosial-iqtisadi inkişafını sürətləndirmək məqsədilə imzaladığı yeni Sərəncam müstəsna rol oynayır. Sərəncama əsasən, ümumilikdə, 258 milyon manat vəsait muxtar respublikanın həyatında keyfiyyət dəyişikliklərinə səbəb olacaq konkret layihələrə yönəldiləcək. Sənədin əsas əhəmiyyəti Naxçıvanın "yaşıl enerji" potensialını artırmaq, regionun nəqliyyat və mənzil-kommunal şəraitini təkmilləşdirmək və əhalinin sosial rifahı ilə təhsil imkanlarını müasir standartlara yüksəltməkdir. Bu genişmiqyaslı layihələrin sürətli və keyfiyyətli icrası Naxçıvanın dayanıqlı inkişafını təmin etməklə yanaşı, muxtar respublikanın iqtisadi müstəqilliyini, təhlükəsizliyini və strateji mövqeyini daha da gücləndirəcəkdir.

Prezident İlham Əliyevin Naxçıvana növbəti səfəri və qəbul edilən qərarlar bir daha təsdiqləyir ki, Naxçıvan özünün yeni inkişaf mərhələsində yalnız Azərbaycanın deyil, bütün regionun parlaq gələcəyinə, iqtisadi inteqrasiyasına və təhlükəsizliyinə xidmət edən mühüm mərkəzə çevrilir. Bu səfər bir daha nümayiş etdirdi ki, Naxçıvan özünün keyfiyyətcə yeni inkişaf mərhələsində qlobal və regional miqyaslı layihələrin aparıcı hərəkətverici qüvvəsinə çevrilməkdədir. Muxtar respublikada formalaşdırılan müasir ordu strukturu, sürətlə modernləşdirilən mülki və sosial infrastrukturlar, həmçinin beynəlxalq nəqliyyat dəhlizlərinə inteqrasiya addımları bölgədə tamamilə yeni reallıqlar yaradır. Bu gün Naxçıvan geniş regional coğrafiyanın gələcək xəritəsini müəyyən edən strateji qovşaq rolunu oynayır. Reallaşdırılan irimiqyaslı infrastrukturlar, Zəngəzur dəhlizinin açılması istiqamətində atılan qətiyyətli addımlar, "yaşıl enerji" potensialının tam gücü ilə işə salınması və Azad İqtisadi Zonanın formalaşdırılması Naxçıvanın geoiqtisadi çəkisini misilsiz dərəcədə artırır. Bütün bunlar göstərir ki, Naxçıvan yalnız ölkəmizin daxili sosial-iqtisadi tərəqqisinə deyil, bütövlükdə, regionun dayanıqlı təhlükəsizliyinə, iqtisadi inteqrasiyasına və işıqlı gələcəyinə xidmət edən həlledici mərkəzə çevrilir.

**Arzu ABDULLAYEV**
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədr müavini***

Naxçıvan Muxtar Respublikası əsrlərboyu Azərbaycanın strateji qalası, zəngin mədəniyyət və dövlətçilik ənənələrinin mühüm mərkəzlərindən biri olub. Uzun illər mürəkkəb geostrateji şəraitdə və coğrafi təcrid vəziyyətində yaşamasına baxmayaraq, muxtar respublika öz potensialı ilə ölkəmizin sosial-iqtisadi inkişafında mühüm rol oynayıb. Bu gün Naxçıvan yeni inkişaf mərhələsinə qədəm qoyur. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Naxçıvana səfəri muxtar respublika sakinləri üçün ilin ən əlamətdar hadisələrindən biri oldu.

## Naxçıvanın sosial-iqtisadi inkişafında yeni strateji mərhələ

Dövlət tərəfindən həyata keçirilən məqsədyönlü proqramlar, nəhəng infrastruktur layihələri, idarəetmədə müasir yanaşmalar və islahatlar Naxçıvanı nəinki dayanıqlı inkişaf diyarına, həm də regionun mühüm nəqliyyat, logistika və enerji mərkəzinə çevirir. Prezident İlham Əliyevin Naxçıvana növbəti səfəri və Azərbaycan Televiziyasına verdiyi müsahibədə səsləndirdiyi fikirlər bu inkişaf mərhələsinin konturlarını, gələcək hədəfləri və strateji baxışı nümayiş etdirir.

Prezident İlham Əliyevin səfəri muxtar respublikanın sosial-iqtisadi inkişafı, yeni layihələrin reallaşdırılması və qarşıdakı hədəflərin müəyyənləşdirilməsi baxımından xüsusi əhəmiyyət daşıyırdı. Səfər çərçivəsində həyata keçirilən işlərlə tanışlıq, yeni obyekt və müəssisələrin fəaliyyəti ilə bağlı təqdimatlar Naxçıvanın inkişaf dinamikasını nümayiş etdirdi. Bu səfər muxtar respublikada görülən işlərin və yeni layihələrin təqdimatı ilə yanaşı, qarşıdakı dövr üçün mühüm mesajlarla yadda qaldı. Səsləndirilən fikirlər Naxçıvanın gələcək inkişafına dair prioritetləri, yeni imkanları və qarşıda duran strateji istiqamətləri ortaya qoydu. Bir sözlə, Naxçıvan Prezident İlham Əliyevin liderliyi ilə qarşıdakı böyük hədəflərə doğru inamla irəliləyir.

Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri və səfər çərçivəsində Azərbaycan Televiziyasına verdiyi müsahibədə səsləndirdiyi fikirlər göstərir ki, Naxçıvanın inkişafına artıq yalnız bir regionun sosial-iqtisadi tərəqqisi kontekstində deyil, Azərbaycanın uzunmüddətli geosiyasi və geoiqtisadi strategiyasının mühüm tərkib hissəsi kimi yanaşılır. Prezident İlham Əliyevin müsahibəsində diqqətçəkən mühüm məqamlardan biri Naxçıvanın inkişafının Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı quruculuq prosesi ilə vahid strateji baxış çərçivəsində təqdim edilməsidir. Dövlət başçısı "yaşıl enerji", kənd təsərrüfatı, suvarma, turizm və infrastruktur istiqamətlərində görülən işlərdən danışaraq bu bölgələrin iqtisadi baxımdan bir-biri ilə əlaqələndiriləcəyini vurğulayıb. Bu yanaşma faktiki olaraq Azərbaycanın qərb bölgələrindən Naxçıvana qədər uzanan yeni iqtisadi inkişaf məkanının formalaşdırılması deməkdir.

Prezidentin Naxçıvana 17-ci səfəri çərçivəsində verdiyi mesajların əsas qayəsini muxtar respublikanın dayanıqlı və hərtərəfli inkişafının təmin olunması təşkil edir. Dövlətimizin başçısı vurğuladı ki, Naxçıvanın inkişafı daha geniş coğrafiyanın iqtisadi və nəqliyyat imkanlarına təsir göstərən strateji prosesdir. Naxçıvanın hərtərəfli inkişafı sistemli xarakter daşıyır və müxtəlif istiqamətlərdə atılan addımlar vahid inkişaf strategiyasının tərkib hissəsidir. Naxçıvanın strateji coğrafi mövqeyi onun təhlükəsizlik məsələlərinə xüsusi diqqət yetirilməsini zəruri edir. Cənab Prezidentin də söylədiyi kimi, Naxçıvanın müdafiə potensialının gücləndirilməsi prioritet istiqamətlərdən biridir: ***"Azərbaycan Silahlı Qüvvələri bölgədə söz sahibidir. O cümlədən Naxçıvanda hərbi potensial gündən-günə gücləndirilir və gücləndiriləcək".*** Bu mesaj cənab Prezidentin Naxçıvanın təhlükəsizliyinə verdiyi strateji əhəmiyyətin göstəricisidir. Müasir hərbi texnika, yeni komando qüvvələri və Əlahiddə Ümumqoşun Ordunun imkanlarının gücləndirilməsi Naxçıvanın müdafiə qabiliyyətinin davamlı şəkildə artırılmasına xidmət edir.

Dövlətimizin başçısının avqustun 12-də imzaladığı "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında" Sərəncamı da strateji inkişaf kursunun davamlılığını bir daha təsdiqləyir. Sənədə əsasən muxtar respublikada bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsi, yol, nəqliyyat, təhsil və mənzil-kommunal infrastrukturunun yenilənməsi məqsədilə, ümumilikdə, 258 milyon manat vəsait ayrılıb. Bu istiqamətdə həyata keçirilən layihələr Naxçıvanın müasir simasını daha da gözəlləşdirməklə yanaşı, əhalinin rifahının yüksəlməsinə birbaşa xidmət edəcək. Dövlətimizin başçısının müdrik rəhbərliyi sayəsində Naxçıvan bundan sonra da yeni-yeni uğurlara imza ataraq Azərbaycanın sosial-iqtisadi və geostrateji qüdrətinin sarsılmaz qalası olaraq qalacaq.

Ümummilli Lider Heydər Əliyevin qoruduğu, Prezident İlham Əliyevin yeni tarixi mərhələyə yüksəltdiyi Naxçıvan bu gün özünün ən qüdrətli dönəmini yaşayır. Bir zamanlar blokada çətinlikləri ilə üz-üzə qalan Naxçıvan indi irimiqyaslı infrastrukturu, güclü sənayesi, "yaşıl enerji" potensialı və müasir idarəetmə modeli ilə gələcəyə inamla addımlayır.

**Gülxarə TARVERDİYEVA**
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı***

# Azərbaycanın hərbi və diplomatik qələbəsinin nəticəsi

## Azad Laçın



*Azərbaycan Bayrağı Laçında əbədi dalğalanacaq*

***“Bu gün avqustun 26-da biz – azərbaycanlılar Laçın şəhərinə qayıtmışıq. Azərbaycan Ordusu Laçın şəhərinə yerləşdi. Zabux və Sus kəndləri nəzarətə götürüldü. Bütün laçınlıları və Azərbaycan xalqını bu münasibətlə təbrik edirəm. Yaşasın Laçın! Yaşasın Azərbaycan!”*** **2022-ci il avqustun 26-da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev xalqımıza Laçın şəhərinin azad olunması ilə bağlı müjdəli xəbəri verdi. İki il əvvəl qazanılmış Zəfərin real nəticəsi olaraq həmin gün biz də illərdir, həsrətində olduğumuz Laçına qovuşduq.**

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2022-ci il sentyabrın 21-də Laçın şəhərində Azərbaycan Bayrağını ucaltdı. Dövlət başçısı həmin gün qarşıdakı hədəfi də açıqladı: *“İndi isə vaxt gəlib çatıb ki, biz Laçın şəhərini bərpa edək. Əminəm ki, biz buna tez bir zamanda nail olacağıq. Çünki Vətən müharibəsindən sonra bu günə qədər keçən dövr ərzində gördüyümüz işlər – genişmiqyaslı quruculuq və bərpa işləri göstərir ki, biz öz diyarımızı, Vətənimizi öz hesabımıza bərpa edirik və edəcəyik”.***

***Laçın özünün yeni tarixi mərhələsində***

Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərə mütəmadi səfərlər edir, burada aparılan bərpa-quruculuq işləri ilə tanış olur, yeni layihələrin əsasını qoyur və həyata keçirilən işlərin gedişini diqqətdə saxlayır. 2020-ci ildə Laçını döyüşsüz azad edən Ali Baş Komandan bu gün həmin torpaqlarda həyata keçirilən nəhəng quruculuq prosesinə rəhbərlik edir. Dövlət başçısının Laçına səfərləri şəhərin və ətraf kəndlərin yenidən qurulması, infrastruktur layihələrinin icrası, “yaşıl enerji” obyektlərinin, su anbarlarının və Laçın Beynəlxalq Hava Limanının yaradılması ilə yadda qalıb.

2023-cü il avqustun 25-də Laçın rayonuna səfəri zamanı Prezident İlham Əliyev “AzərEnerji” ASC-nin “Mişni” və “Alxaslı” Kiçik Su Elektrik stansiyalarının açılışlarında iştirak edib. 2025-ci il mayın 27-28-də isə Laçın şəhərində “LATIFA” tikiş fabrikinin açılışına, “Laçın” qovşaq yarımstansiyasının təməlqoyma mərasiminə qatılıb, sakinlərlə görüşüb. Həmin səfər çərçivəsində Laçın Beynəlxalq Hava Limanının açılışı da baş tutub. Bu hadisə Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə edilmiş tarixi Zəfərdən sonra işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən sistemli və məqsədyönlü bərpa-quruculuq strategiyasının növbəti mühüm mərhələsi kimi qiymətləndirilir.

Laçın Beynəlxalq Hava Limanı yalnız nəqliyyat və logistika imkanlarını genişləndirən infrastruktur layihəsi deyil. O, Azərbaycanın dövlət suverenliyinin və ərazi bütövlüyünün yeni reallıqlar fonunda daha bir əyani ifadəsidir. Hava limanının istifadəyə verilməsi Laçın regional nəqliyyat əlaqələrində mövqeyini gücləndirməklə yanaşı, Qarabağ və Şərqi Zəngəzurun ölkənin iqtisadi və nəqliyyat məkanına daha sıx inteqrasiyasına xidmət edir.

Dövlətimizin başçısı Laçına növbəti səfəri zamanı burada aparılan quruculuq işlərindən bəhs edərək deyib: ***“Biz öz doğma torpaqlarımızı işğalçılardan azad edəndən sonra mən demişdim ki, Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. Cənnətin əgər təsviri varsa, bu gün bax budur. Gözəl təbiət, əzəmətli dağlar, gözəl binalar, evlər – hər şey çox böyük zövqlə yaradılır ki, həm insanlar burada rahat yaşasınlar, həm də Laçın şəhərinin müasir siması Azərbaycanın əldə etdiyi uğurlarla eyni səviyyədə olsun”.***

***Quruculuq və qayıdış davam edir***

Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə təsdiq edilən Böyük Qayıdışla bağlı 2022-2026-cı illəri əhatə edən Dövlət Proqramının əsas hədəfi ilk beşillikdə 34 min 500 ailənin azad edilmiş ərazilərə köçürülməsidir. Bu istiqamətdə məqsədyönlü tədbirlər ardıcıl şəkildə həyata keçirilir. Yeni infrastrukturun qurulması, yaşayış evlərinin tikilməsi, yolların və digər kommunikasiya sistemlərinin yaradılması istiqamətində görülən işlər 30 ilə yaxın məcburi köçkün həyatı yaşamış vətəndaşlarımızın doğma yurdlarına qayıdışının davamlı xarakter aldığını göstərir.

Laçınlıların doğma yurda qayıdışına 2023-cü il mayın 28-dən başlanılıb. Köçürülən ailələrin vaxtilə yaşadıqları ərazilərdə bərpa və ya yenidən inşa edilən evlərdə məskunlaşması üçün bütün şərait yaradılıb.

Laçında aparılan genişmiqyaslı quruculuq işləri şəhərin təbii landşaftı və tarixi siması nəzərə alınmaqla həyata keçirilir. Baş plan layihəsində təbii yaşıllıqlarla əhatələnmiş, tarixən mövcud olmuş, təxminən, 258 hektarlıq məskunlaşma ərazisində həyətyanı sahəsi olan fərdi evlərə üstünlük verilib. Şəhərdə əhalinin istirahətinin səmərəli təşkili istiqamətində də mühüm layihələr icra olunur.

“Böyük Qayıdış” proqramı çərçivəsində Laçın rayonuna və şəhərinə daimi yaşayış üçün köçürülən sakinlərin ümumi sayı 3600 nəfərə yaxındır. Rayonda daimi çalışan və xidmət göstərən şəxslərlə birlikdə burada yaşayanların sayı isə, təqribən, 4500-5000 nəfər təşkil edir.

Prezident İlham Əliyev cari il iyulun 11-də Laçında Hoçaz çayı üzərində “Ağbulaq-1”, “Ağbulaq-2” və “Şeylanlı” Su Elektrik stansiyalarının açılışında iştirak edib, həmçinin “Həkəriçay” su anbarının təməlini qoyub. Bu layihələr də göstərir ki, işğaldan azad edilmiş ərazilərdə quruculuq prosesi yalnız yaşayış məntəqələrinin bərpası ilə məhdudlaşmır, iqtisadi, enerji və su təhlükəsizliyini əhatə edən kompleks inkişaf strategiyası əsasında davam etdirilir.

Xalqımız Azərbaycanın hərbi və diplomatik qələbəsinin nəticəsi kimi tarixləşən 26 avqustu – Laçın Şəhəri Gününü böyük qürur və sevinclə qeyd edir.

Bu gün Şərqi Zəngəzurun, xüsusilə Laçının yeni siması müstəqilliyimizin nə qədər güclü, dövlətimizin nə qədər qüdrətli olduğunu bir daha nümayiş etdirir. Laçın həm də insanlarımızın öz doğma yurdlarına bağlılığının, illərlə qorunan qayıdış arzusunun gerçəyə çevrildiyinin canlı nümunəsidir.

Azərbaycan xalqı görür ki, dövlətimiz müharibədə də qələbə qazandı, sülh və quruculuq mərhələsində də öz gücünü nümayiş etdirir. Bu gücün təməlində isə xalqın iradəsi, dövlət-xalq birliyi və Vətənə bağlılıq dayanır.

Prezident İlham Əliyevin dediyi kimi: ***“Müharibədə də zəfərimiz xalqın birliyi nəticəsində olmuşdur. Bu gün quruculuq-abadlıq işlərini apararkən bizi gücləndirən xalqın iradəsi, dəstəyidir”.***

Laçının azadlığı bu birliyin tarixi nəticəsi, onun bugünkü dirçəlişi isə həmin zəfərin davamıdır. Azərbaycan Bayrağı Laçında əbədi dalğalanacaq.

**Ramiyə ƏKBƏROVA**



# Əsrləri birləşdirən memarlıq ruhu

**Zamanın daşlaşmış yaddaşı adlandırırlar memarlığı. Dünyanın ən qədim sivilizasiya ocaqlarından biri olan Naxçıvan torpağına qədəm qoyanda bu həqiqət canlı nəfəs, vizual bir əzəmət kimi insanı qarşılayır. Əsrlərin, minilliklərin küləyi bu torpağın üzərindən keçib getsə də, Naxçıvanın memarlıq irsi öz möhtəşəmliyini, öz milli kimliyini və estetik ruhunu qoruyub saxlaya bilib. Bu gün həmin əzəmətli keçmişlə müasir Azərbaycanın parlaq reallığı arasında qurulan mənəvi körpü özünəməxsus bir təmtəraqla yenidən işıqlanır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın avqustun 11-də Naxçıvana növbəti səfəri və bu səfər çərçivəsində Naxçıvan şəhərindəki "Əcəmi seyrangahı" istirahət kompleksində dahi memar Əcəmi Naxçıvaninin abidəsinin açılışı heç də təsadüfi hadisə deyil. Bu, tarixi yaddaşın bərpası, milli ruha ehtiram və ən əsası, keçmişdən gələcəyə atılan möhkəm addımların təcəssümüdür.**




"Şəhərsalma və Memarlıq İli"ndə bu tarixi hadisənin baş tutması dərin məna daşıyır. Şəhərsalma binaların, küçələrin, parkların salınması ilə məhdudlaşmır. Şəhərsalma bir xalqın dünyagörüşünün, estetik zövqünün, dövlətçilik təfəkkürünün və zamanla idarəetmə bacarığının daşda, kərpicdə, məkanda ifadəsidir. Əgər bir millətin keçmişində Əcəmi kimi ustad durursa, deməli, onun memarlıq irsi sıradan bir sənət örnəyi yox, genetik yaddaşında kodlaşdırılmış möcüzədir. XII əsrdə dahi Əcəmi "Biz gedirik, ancaq qalır ruzigar, biz ölürük, əsər qalır yadigar" deyərkən həm də əsrlər sonrakı nəsillərin də mənəvi taleyini cızmışdı. Möminə xatun türbəsinin incə naxışlarında, Yusif Küseyir oğlu türbəsinin riyazi dəqiqliyində yaşayan o ruh, bu gün müasir Naxçıvanın küçələrində, tikililərində yenidən dil açır.

Prezident İlham Əliyevin dahi memarın heykəli qarşısında dayandığı o an, əslində, iki fərqli əsrin, iki böyük quruculuq təfəkkürünün görüşü idi. Biri XII əsrin Şərq intibahını daş üzərində mozaikaya, riyaziyyata, həndəsi gözəlliyə çevirən, orta əsrlər memarlığının zirvəsini fəth edən bir dahi, digəri gücünü zəngin tarixdən alan, lakin baxışları daim gələcəyə, müasirliyə, modernləşməyə yönəlmiş XXI əsrin qüdrətli dövlət xadimi. Bu görüşdə keçmişə, sadəcə, rəmzi bir ehtiram yox idi. Burada keçmişin təcrübəsindən güc alan, onu müasir şəhərsalma konsepsiyaları ilə sintez edən böyük dövlət iradəsi var idi. Prezident İlham Əliyevin ötən il imzaladığı Sərəncama əsasən ucaldılan bu abidə böyük Azərbaycan memarının zəngin irsini daha müasir yanaşma əsasında təqdim etmək məqsədilə yaradılıb. Xalq rəssamları Salxab Məmmədov, Əli İbadullayev və Naxçıvan Muxtar Respublikası Memarlar Birliyinin sədri Heydər Əhmədovun müəllifi olduğu bu sənət əsəri ustadın irsinə verilən dəyərin ifadəsidir.

Bu gün Azərbaycanda aparılan genişmiqyaslı tikinti-quruculuq işləri, işğaldan azad edilmiş torpaqlarda yenidən dirçələn şəhərlər, Naxçıvanın daha da modernləşməsi məhz həmin tarixi memarlıq məktəbinin müasir müstəvidə davamıdır.

Naxçıvan memarlıq məktəbi tarixən yalnız bir bölgənin çərçivəsində qalmayıb, bütün Yaxın və Orta Şərqin memarlıq düşüncəsinə istiqamət verib. Əcəmi Naxçıvaninin yaratdığı üslub, bişmiş kərpicdən istifadə, firuzəyi kaşı naxışların zərifliyi, həndəsi fiqurların riyazi harmoniyası, əslində, dövrünün mühəndislik möcüzəsi idi. Bu gün Naxçıvana baxdıqda o qədim ruhun müasir şəhər strukturu ilə necə təbii, necə ahəngdar şəkildə qovuşduğunu görürük. Şəhər öz qədimliyini qorumaqla yanaşı, müasir infrastrukturun, təmizliyin və estetik nizamın nümunəsinə çevrilib. Memar Əcəminin heykəlinin ucaldılması və onun şəxsən ölkə rəhbəri tərəfindən açılışı Naxçıvanın yalnız tarixi yaddaş məkanı deyil, həm də Azərbaycanın mədəniyyət, sənət və şəhərsalma paytaxtlarından biri olduğunu bir daha bəyan edir.

Şəhərsalma həm də yaddaşın bərpası və yaşadılması sənətidir. Bu gün azad olunmuş Qarabağda və Şərqi Zəngəzurda sıfırdan salınan "ağıllı şəhərlər" və "ağıllı kəndlər", bərpa edilən tarixi-mədəni abidələrimiz göstərir ki, Azərbaycan xalqı hər zaman qurucu, yaradıcı, daşa can verən bir xalq olub. Bu gün Naxçıvanda vurulan memarlıq möhürü, keçmişlə bu günü bağlayan əsas təməl xətt mənbəyini milli-mənəvi dəyərlərdən alan müasirlik modelidir.

Bu il Naxçıvan memarlıq məktəbinin banisi Əcəmi Naxçıvaninin anadan olmasının 900 illiyi tamam olur. Tarixə nəzər salsaq görərik ki, Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə dahi memarın 850 illik yubileyi hələ 1976-cı ildə Azərbaycanda təntənəli şəkildə qeyd olunmuşdu. Hazırda isə onun 900 illiyinin UNESCO çərçivəsində qeyd edilən yubileylər siyahısına daxil edilməsi çoxəsrlik mədəni zənginliklərimizin beynəlxalq səviyyədə təbliğində müstəsna rol oynayır.

Ustad Əcəminin daşa həkk etdiyi o incə naxışlar, Naxçıvanın səmasında ucalan həmin abidələr, küçələrini bəzəyən yeni memarlıq nümunələri göstərir ki, o arzu sönməyib. Əksinə, yeni dövrün tələblərinə, yeni şəhərsalma standartlarına uyğun olaraq daha da cilalanıb. Prezident İlham Əliyevin bu açılışda iştirak etməsi xalqın mədəni irsinə verilən dövlət qiymətinin ali təzahürüdür. Əslində, bu gələcək nəsillərə göndərilən aydın bir mesajdır. Öz keçmişinə, öz memarına, öz daş yaddaşına sahib çıxmayan bir millət möhkəm gələcək qura bilməz.

Naxçıvan bu gün həm də tarixi İpək Yolunun, müasir nəqliyyat koridorlarının və strateji geopolitik qovşaqların mərkəzində durur. Belə bir məkanın estetik siması, şəhərsalma mədəniyyəti onun həm də vizual pasportudur. Memar Əcəminin əzəmətli heykəli bu pasportun ən qiymətli möhürlərindən biridir. Hər bir şəhərin öz ruhu, öz siması var. Naxçıvanın ruhunu və kimliyini dahi ustadsız, onun yaratdığı möhtəşəmliklərdən ayrı təsəvvür etmək mümkün deyil.

"Şəhərsalma və Memarlıq İli"ndə baş tutan bu addım keçmişin möhtəşəm irsini müasir Azərbaycanın zəfər, quruculuq və inkişaf erasının tərkib hissəsinə çevirir. Zaman axıb gedir, nəsillər dəyişir, lakin daşların üzərində yazılan kəlamlar, dahi əllərin yaratdığı abidələr və onları yaşadan dövlət iradəsi əbədi qalır. Əcəmi Naxçıvaninin daşlaşmış möcüzələri necə ki əsrlərdir zamanın sınağından üzüağ çıxıb, bu gün atılan addımlar, ucaldılan yeni memarlıq abidələri və bərpa olunan şəhərlər də gələcək nəsillərə qürurla ötürüləcək mirasdır.

**Elnurə CƏFƏROVA**



# Vətənə və xalqa xidmət nümunəsi

**Vətənə və xalqa xidmət ideyasını həyat amalına çevirən, nəcibliyi və xeyirxah əməlləri ilə milyonların rəğbətini qazanan Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva müasir dövrümüzün nüfuzlu ictimai-siyasi xadimlərindən biridir. Onun mərhəmət, şəfqət və humanizmə əsaslanan fəaliyyəti milli-mənəvi dəyərlərin qorunmasına, Azərbaycan cəmiyyətinin sosial rifahının yüksəldilməsinə xidmət edir.**

**Mənalı ömür yolu, yüksək humanizmi və bənzərsiz ictimai fəaliyyəti ilə nəinki Azərbaycanda, eləcə də dünyada böyük ehtiram qazanan Mehriban xanım Əliyevanın Vətənə xidmət fəlsəfəsinin təməlində xalqına sonsuz sevgi, Ulu Öndər Heydər Əliyev ideyalarına sarsılmaz inam və Prezident İlham Əliyevin müstəqil siyasətinə yüksək sədaqət dayanır. Xeyirxahlığı, yüksək bacarığı, diqqət və qayğısı ilə insanların hörmət və məhəbbətini qazanan Mehriban xanım Əliyevanın ölkəmizin ictimai-siyasi və mədəni həyatındakı rolu mühüm, xidmətləri isə danılmazdır.**



## Prezident İLHAM ƏLİYEV:

**“Mehriban Əliyeva çox peşəkar, bilikli, təcrübəli, prinsipial bir insandır, eyni zamanda çox xeyirxah bir insandır və təsadüfi deyil ki, Azərbaycan xalqı ona çox böyük rəğbətlə, sevgi ilə yanaşır.”**

2004-cü ildə Azərbaycan xalqının zəngin mənəvi irsini, Azərbaycançılıq fəlsəfəsini yaşatmaq, dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaradılan və Ulu Öndər Heydər Əliyevin adını daşıyan Heydər Əliyev Fondu ötən illər ərzində çoxsaylı və əhəmiyyətli layihələr həyata keçirib. Bu gün hər bir azərbaycanlının böyük sevgi və ehtiramını qazanan fond Ulu Öndərin adını şərəflə daşımaqla dahi rəhbərin xatirəsinə layiqli fəaliyyət göstərməyi özünün əsas vəzifələrindən birinə çevirib.

Fondun prezidenti Mehriban xanım Əliyevanın dediyi kimi: *“Xoşbəxtəm ki, həyatımın böyük hissəsini müasir Azərbaycanın dahi şəxsiyyəti Heydər Əliyevin yanında yaşamışam. Bu nəhəng şəxsiyyətə hədsiz ehtiram, heyranlıq, pərəstiş və sevgi hissini ömrümün sonunadək yaşadacağam. Heydər Əliyev güc və qüdrət, hədsiz intellekt, mətin iradə, yüksək əxlaq və ləyaqət, sonsuz vətənpərvərlik, doğma torpağa və xalqa məhəbbət rəmzidir. O, əlçatmaz ideal və mənim həyatımda əsas Müəllimdir”.*

Fondun gördüyü işlərin nəticələri göz önündədir. Yüzlərlə yeni məktəb inşa olunub, uşaq bağçaları və digər təhsil müəssisələri müasirləşdirilib, yeni tibb ocaqları, xəstəliklərdən əziyyət çəkən uşaqlar üçün xüsusi tibb və reabilitasiya mərkəzləri yaradılıb. Tarixi və dini abidələr bərpa olunub, yeni mədəniyyət ocaqları və muzeylər qurulub.

Bütün bunlarla yanaşı, Azərbaycanın həqiqətlərinin dünyaya çatdırılması istiqamətində mühüm tədbirlər həyata keçirilib, ölkəmizin zəngin mədəni və tarixi irsinin təbliğinə yönəlmiş kitablar, foto və videoalbomlar nəşr olunub, beynəlxalq simpoziumlar, festivallar və elmi konfranslar təşkil edilib. Fondun fəaliyyətinin mühüm istiqamətlərindən biri də xeyriyyəçilikdir. Həyata keçirilən çoxsaylı layihələr nəticəsində yüzlərlə insan sağlam həyata qovuşub, minlərlə insanın həyatına ümid və sevinc gətirilib.

Prezident İlham Əliyev Heydər Əliyev Fondunun fəaliyyətini yüksək qiymətləndirərək deyib: ***“Bu fondun çoxşaxəli fəaliyyətini əgər bir sözlə xarakterizə etmək mümkündürsə, mən “Xoş niyyət” deyərdim. Çünki bütün sahələrdə biz bunu görürük”.***

Fondun fəaliyyət dairəsi olduqca genişdir. İnsan və onun layiq olduğu səviyyədə yaşaması prinsipi bu fəaliyyətin əsas istiqamətlərindəndir. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ekologiya və məşğulluq sahələrində istedadlı gənclərin müxtəlif layihələrə cəlb olunması üçün mühüm imkanlar yaradılıb. Valideyn qayğısından məhrum uşaqların taleyinə həssaslıqla yanaşılması, müxtəlif xəstəliklərdən əziyyət çəkən körpələrin sağlamlığı naminə mümkün olan bütün addımların atılması onun humanist fəaliyyətinin mühüm göstəricilərindəndir.

2017-ci il fevralın 21-də Mehriban Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti vəzifəsinə təyin edilməsi onun dövlətçiliyin inkişafı və möhkəmləndirilməsi naminə zəngin və fədakar fəaliyyətinin, yüksək təşkilatçılıq qabiliyyətinin məntiqi nəticəsi oldu. Həmin vaxt Mehriban xanımın söylədiyi sözlər bu məsuliyyətin mahiyyətini aydın ifadə edirdi: *“Üzərimə düşən məsuliyyət olduqca böyükdür. Mən Prezidentin etimadını doğrultmalıyam və ən başlıcası isə inamı, ümidi olan insanların etimadını doğrultmalıyam”.*

Azərbaycanın inkişafı və xalqımızın rifahı naminə üzərinə mühüm missiya və öhdəliklər götürən Birinci vitse-prezident ötən illər ərzində yüksək və məsul vəzifədə gördüyü işlərlə dövlətimizin başçısının və xalqımızın etimadını layiqincə doğrultdub. Gündəlik fəaliyyətində insansevərlik, mərhəmət, qarşılıqlı hörmət və mehribanlıq meyarlarını əsas götürür, milli-mənəvi dəyərləri daim uca tutur. Onun ömür yolu, sözün əsl mənasında, Vətənə və xalqa xidmət nümunəsidir.

Mehriban Əliyevanın fəaliyyətində əhalinin həssas təbəqələrinin, şəhid ailələrinin və qazilərin problemlərinin həlli də xüsusi yer tutur. Onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması, sosial rifahının yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirlər dövlətin insan amilinə verdiyi yüksək dəyərin mühüm ifadəsidir.

Bu fəaliyyət beynəlxalq miqyasda da diqqətlə izlənilir. Dünyanın nüfuzlu mətbuat orqanlarında Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr barədə yayımlanan materiallar Mehriban xanım Əliyevanın humanitar təşəbbüslərinin geniş əks-səda doğurduğunu göstərir. Onun vaxtı və enerjisi insanların sağlamlığına, rifahına və firavanlığına xidmət edən layihələrə yönəlir. İnsan amilinin yüksəlişinə hesablanan bu fəaliyyət, ilk növbədə, Heydər Əliyev ideyalarına sədaqətin, Prezident İlham Əliyevin Vətən və xalq naminə həyata keçirdiyi məqsədyönlü siyasətə dəstəyin ifadəsidir.

Təvazökarlıq insanın ən ali mənəvi keyfiyyətlərindən biridir. *“Ailə mənim üçün, düşünürəm ki, elə hər kəs üçün istənilən şəraitdə həyatın əsas mənası və stimulu, istinad nöqtəsi və güc mənbəyidir”,* – deyən Mehriban xanım Əliyeva ictimai fəaliyyətində də bu dəyəri qoruyub saxlayır. O, müsahibələrinin birində belə deyib: *“Həyatım elə gətirib ki, mən ictimai şəxsiyyətəm, lakin heç vaxt tanınmağa, məşhur olmağa can atmamışam. Əgər hansısa nəticələr əldə etməyə nail oluramsa, fəaliyyətim fayda gətirirsə, ölkəyə və insanlara xidmət edirəmsə, yardıma ehtiyacı olanlara kömək etməyi bacarıramsa – bu mənim üçün ən yüksək mükafatdır”.*

Bu sözlər Vətən və dövlətçilik naminə yaşayan, insanların həyatına fayda verməyi əsas məqsəd sayan bir insanın həyat fəlsəfəsini ifadə edir.

Mehriban xanım Əliyeva Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin həyat yoldaşı olmaqla yanaşı, onun məslək və qayə yoldaşı, dövlətçilik yolunda sədaqətli silahdaşıdır. 44 günlük Vətən müharibəsi zamanı Ali Baş Komandanın Zəfər müjdəsini ilk olaraq sosial şəbəkə hesablarında “Sizin Mehriban” imzası ilə paylaşması, Prezidentlə birlikdə hospitallarda müalicə olunan hərbçiləri ziyarət etməsi, şəhid analarının yanında olması, qələbədən sonra işğaldan azad edilmiş ərazilərə dəfələrlə səfər etməsi onun vətənpərvərliyi, mərhəməti və xalqına bağlılığının parlaq ifadələrindəndir.

Prezident İlham Əliyev Birinci vitse-prezident kimi Mehriban xanım Əliyevanın fəaliyyəti haqqında xarici jurnalistin verdiyi suala belə cavablandırıb: ***“Onun azərbaycanlılar arasında güclü dəstəyi var. Siz küçədə istənilən şəxsdən soruşa, vətəndaşların onu necə sevdiyini və dəstəklədiyini görə bilərsiniz. O, tamamilə sosial və humanitar məsələlərlə məşğuldur və on minlərlə insana yardım edir. Lakin o bunu hər hansı bir piarsız, reklamsız və elansız edir. Beləliklə, o, xalqımızın qürur duyduğu bir şəxsdir”.***

Mehriban xanım Əliyevanın ötən illər ərzində göstərdiyi fəaliyyət çoxşaxəli və genişmiqyaslıdır. Birinci vitse-prezident kimi Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kursun dəstəklənməsinə və uğur qazanmasına layiqli töhfələr verən Mehriban Əliyevanın fəaliyyəti Azərbaycanın bugünkü inkişafında mühüm yer tutur. Heydər Əliyev Fondu tərəfindən işğaldan azad edilmiş ərazilərimizdə tarixi-dini və mədəni abidələrin təmir və bərpası istiqamətində də mühüm layihələr həyata keçirilir. Qarabağ və Şərqi Zəngəzurda tarixi və dini abidələrin, məscidlərin bərpasına göstərilən diqqət milli-mədəni irsimizin qorunması və gələcək nəsillərə çatdırılması baxımından xüsusi əhəmiyyət daşıyır.

Mehriban xanım Əliyevanın fəaliyyəti müxtəlif illərdə yüksək dövlət və beynəlxalq mükafatlarla qiymətləndirilib. Azərbaycanın ən ali dövlət mükafatı olan “Heydər Əliyev” ordeni, “Qızıl ürək” beynəlxalq mükafatı, Avropa Olimpiya Komitələrinin Ali ordeni, Fransanın “Şərəf Legionu” ordeni, İtaliyanın “Xidmətlərə görə” Böyük Xaç Kavaleri ordeni, Polşanın “Böyük Komandor Xaçı” ordeni, Rusiyanın “Dostluq” ordeni, UNESCO-nun “Qızıl Motsart” medalı onun layiq görüldüyü mükafatların yalnız bir hissəsidir.

Lakin Mehriban xanım Əliyeva üçün ən böyük mükafat xalqın sevgisi, inamı və etimadıdır. Onun sözləri ilə desək: *“Gərəkli və faydalı olmaq, insanların sənə inanması və səni dəstəkləməsi xoşbəxtlikdir. Xoşbəxtlik vicdan və niyyətin təmiz olması, sevgi və xeyirxahlığın həyatın əsas qayəsinə çevrilməsidir”.*

Bu həyat fəlsəfəsi Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətinin mahiyyətini bir cümlədə ifadə edir: insana xidmət, Vətənə sədaqət və milli-mənəvi dəyərlərə bağlılıq.

Məhəbbət MİRZƏYEVA

# Naxçıvanda enerji təhlükəsizliyi gücləndirilir: yeni generasiya gücləri ixrac imkanlarını artıracaq – reportaj

**Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin enerji təhlükəsizliyinin möhkəmləndirilməsi və bu çərçivədə Naxçıvan Muxtar Respublikasının enerji potensialının artırılması istiqamətində mühüm layihələr həyata keçirilir. Yeni Günəş elektrik stansiyalarının və 300 meqavat gücündə istilik elektrik stansiyasının yaradılması Naxçıvanın həm daxili enerji tələbatının etibarlı təminata, həm də gələcəkdə elektrik enerjisinin ixracına imkanlarını genişləndirəcək. Məlum olduğu üzrə avqustun 11-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva muxtar respublikaya səfərləri çərçivəsində Naxçıvan şəhərində inşa edilən "Şəms 1" və "Qərbi Üfüq" Günəş Elektrik stansiyalarında görülən işlərlə tanış olublar.**



Hazırda həmin stansiyaların yerləşdiyi ərazidəyik. Öyrənirik ki, burada inşası davam etdirilən iki Günəş elektrik stansiyasından biri – 25 meqavat gücündə olan "Şəms 1"də işlər sürətlə aparılır. Stansiyada 10 meqavatlıq Günəş panellərinin quraşdırılması başa çatdırılıb. Tikinti-quraşdırma işlərinin bu ilin noyabrında yekunlaşdırılması planlaşdırılır. Stansiya tam gücü ilə fəaliyyətə başladıqdan sonra il ərzində, təxminən, 57 milyon kilovat-saat elektrik enerjisi istehsal edəcək. Bu həcm isə 19 minə yaxın ev təsərrüfatının enerji təminatına imkan verəcək.

25 meqavatlıq "Qərbi Üfüq" Günəş Elektrik Stansiyasında isə artıq topoqrafik işlər başa çatdırılıb. Hazırda ərazidə geoloji tədqiqatlar aparılır. Tikinti işlərinə ilin sonunadək başlanılması nəzərdə tutulur. Layihənin bərpa olunan enerji mənbələri ərazisi kimi müəyyənləşdirilmiş 50 hektar sahədə həyata keçirilməsi nəzərdə tutulur. Stansiyanın istismara verilməsindən sonra illik, təxminən, 61 milyon kilovat-saat elektrik enerjisi istehsal olunacaq və bu, 21 minə yaxın ev təsərrüfatının enerji ilə təmin olunmasına imkan verəcək. Eyni zamanda ildə, təxminən, 26 min ton karbon qazı emissiyasının qarşısının alınacağı və 12 milyon kubmetr təbii qaza qənaət ediləcəyi proqnozlaşdırılır.





Ümumilikdə, Naxçıvanda Günəş elektrik stansiyalarının tikintisi üçün 688 hektar ərazi ayrılıb. Layihələrin reallaşdırılması nəticəsində muxtar respublikada bərpa olunan enerji üzrə qoyuluş gücü 158 meqavata çatacaq. Yaxın gələcəkdə Zəngəzur dəhlizinin açılması perspektivində bu layihələr Naxçıvanın enerji təminatında yeni mərhələnin əsasını qoymaqla yanaşı, muxtar respublikanın enerji istehsalçısı kimi mövqeyini də gücləndirir. Xüsusilə 300 meqavat gücündə yeni istilik elektrik stansiyasının yaradılması Naxçıvanın ümumi generasiya gücünün əhəmiyyətli dərəcədə artmasına şərait yaradacaq.

"Şərq qapısı"na müsahibəsində mövzunun əhəmiyyətini şərh edən Naxçıvan Dövlət Universitetinin müəllimi Əziz Qasımov bildirir ki, Prezident İlham Əliyevin müəyyən etdiyi enerji strategiyasının mühüm istiqamətlərindən biri də Naxçıvanın "yaşıl enerji" zonası"na çevrilməsidir.

Muxtar respublikanın əlverişli coğrafi mövqeyi, günəşli günlərin çoxluğu, eləcə də külək və hidroenerji ehtiyatları muxtar respublikanı ciddi bərpa olunan enerji potensialına malik bölgələrdən birinə çevirir. Bu gün Naxçıvanda həyata keçirilən "yaşıl enerji" layihələri yalnız muxtar respublikanın daxili tələbatının bərpa olunan enerji hesabına təmin edilməsinə deyil, eyni zamanda "yaşıl enerji"nin istehsalına və ixracına hesablanıb. Qarabağ və Şərqi Zəngəzurda bu istiqamətdə həyata keçirilən layihələrin davamı olaraq Naxçıvanda da "yaşıl enerji" potensialından səmərəli istifadə edilməsi xüsusi əhəmiyyət daşıyır.

"Zəngəzur dəhlizinin açılması fonunda isə Naxçıvan Azərbaycan-Türkiyə enerji əməkdaşlığında təbii körpü rolunu oynaya bilər. Beləliklə, Naxçıvan təkcə mühüm nəqliyyat qovşağı deyil, həm də gələcəkdə enerji qovşağı kimi əhəmiyyətli mövqeyə malik olacaq.

Naxçıvanda istehsal olunan "yaşıl enerji"nin Türkiyəyə, oradan isə Avropa bazarlarına çıxarılması imkanları muxtar respublikanın iqtisadi potensialının artırılmasına da ciddi töhfə verə bilər. Bu baxımdan, Naxçıvanın "yaşıl enerji zonası"na çevrilməsi həm enerji təhlükəsizliyi, həm də regionun gələcək iqtisadi inkişafı baxımından strateji əhəmiyyət daşıyır",– deyə Əziz Qasımov əlavə edir.

Göründüyü kimi, Naxçıvanın enerji gələcəyi yalnız daha çox elektrik enerjisi istehsalı ilə məhdudlaşmır. Qarşıdakı illərdə burada formalaşdırılan generasiya gücləri, "yaşıl enerji" layihələri və yeni nəqliyyat bağlantıları muxtar respublikanı enerjinin istehsal olunduğu, ötürüldüyü və regional bazarlara çıxarıldığı mühüm mərkəzlərdən birinə çevirə bilər. Bir sözlə, bu gün Naxçıvanda qurulan enerji infrastrukturu sabahın enerji xəritəsini formalaşdırır. Günəşdən əldə olunan hər kilovat-saat enerji isə muxtar respublikanın daha dayanıqlı, daha təhlükəsiz və daha böyük iqtisadi imkanlara malik gələcəyinə qoyulan sərmayədir.

Nail ƏSGƏROV



# "Yaşıl nəqliyyat" Naxçıvanı komfortlu şəhərə çevirəcək

**Cəmiyyət və texnologiya inkişaf etdikcə insanların şəhər həyatına dair tələbləri də dəyişir. Bu gün müasir şəhər anlayışı yalnız yeni binalar, yollar və infrastrukturlarla deyil, həm də insan üçün sağlam, təhlükəsiz, komfortlu və ekoloji cəhətdən təmiz yaşayış mühitinin yaradılması ilə ölçülür. Bu baxımdan, dayanıqlı və "yaşıl şəhər" modelinə keçid XXI əsrin əsas inkişaf istiqamətlərindən birinə çevrilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2025-ci il 4 mart tarixli "Naxçıvan şəhərində ictimai nəqliyyatın tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında" Sərəncamı da Naxçıvanın müasir şəhər modelinə keçidi baxımından mühüm əhəmiyyət daşıyır. Sərəncama əsasən Naxçıvan şəhərində ictimai nəqliyyatın yalnız elektrik mühərrikli avtobuslarla təşkili məqsədilə ölkəmizdə yığılan, geniş sərnişin tutumuna və yüksək komfort imkanlarına malik "BYD" markalı 60 avtobus alınıb. Bununla yanaşı, enerjidoldurma cihazları quraşdırılıb, avtobuslara xidmət göstərilməsi üçün depo infrastrukturu təkmilləşdirilib.**



Bu yenilik Naxçıvanda ictimai nəqliyyatın keyfiyyətcə yeni mərhələyə keçidini təmin etməklə yanaşı, şəhərin ekoloji mühitinin qorunmasına, enerji səmərəliliyinin artırılmasına və "yaşıl iqtisadiyyat" prinsiplərinin gündəlik həyatımıza daha geniş şəkildə daxil olmasına xidmət edir. Layihənin icrası ilə Naxçıvan şəhərində 9 marşrut xətti üzrə il ərzində 4,5 milyon sərnişinə xidmət göstərilməsi nəzərdə tutulur.

Prezident İlham Əliyevin avqustun 11-də Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində şəhərin ictimai nəqliyyat sistemində istifadəyə verilən yeni elektrikli avtobuslar bu dəyişikliklərin artıq real nəticəyə çevrildiyini göstərir. Ekoloji üstünlükləri ilə yanaşı, avtobusların salon komfortu, yay aylarında sərinlik, qış mövsümündə isə istilik imkanları sərnişinlər üçün daha rahat və təhlükəsiz nəqliyyat şəraiti yaradacaq. Beləliklə, Naxçıvanda ictimai nəqliyyatın yenilənməsi təkcə köhnə avtobusların müasir nəqliyyat vasitələri ilə əvəzlənməsi deyil. Bu, şəhər həyatının keyfiyyətinə birbaşa təsir edən, insanların gündəlik hərəkət imkanlarını yaxşılaşdıran və müasir şəhər mədəniyyətinin formalaşmasına xidmət edən mühüm dəyişiklikdir.

Yeni nəqliyyat sisteminin üstünlükləri yalnız avtobusların elektrik mühərriki ilə işləməsi və ətraf mühitə daha az təsir göstərməsi ilə məhdudlaşmır. Burada əsas yeniliklərdən biri də ictimai nəqliyyatın idarə olunmasında müasir texnologiyalardan istifadə edilməsidir. "BakuBus" MMC tərəfindən avtobusların hərəkətinin monitorinq mərkəzi vasitəsilə real vaxt rejimində izlənilməsi marşrutlar üzrə hərəkətin daha səmərəli təşkilinə imkan verəcək. Bu sistem avtobusların qrafikə uyğun hərəkətinə nəzarəti gücləndirməklə yanaşı, gecikmələrin və marşrutdan kənarlaşmaların qarşısının alınmasına da kömək edəcək.

Sərnişindaşıma xidmətlərində elektron ödəniş sisteminin tətbiqi də şəhər nəqliyyatında mühüm yeniliklərdəndir. Avtobuslarda quraşdırılmış müvafiq qurğular vasitəsilə ödənişlərin elektron qaydada həyata keçirilməsi sərnişinlərin avtobusa minməsi və düşməsi zamanı vaxt itkisinin qarşısını alacaq, ödəniş prosesini daha rahat və təhlükəsiz edəcək. Beləliklə, müasir texnologiyalar yalnız nəqliyyat vasitəsinin özündə deyil, sərnişinin gündəlik istifadə etdiyi xidmətlərin təşkilində də özünü göstərəcək.

Yenilənmiş avtobus parkı və onun üçün yaradılan müasir infrastruktur sürücülərin və texniki heyətin iş şəraitinə də müsbət təsir göstərəcək. Rahat və müasir əmək mühiti, texniki xidmət imkanlarının yaxşılaşdırılması, peşəkar idarəetmə və xidmət standartlarının yüksəldilməsi ictimai nəqliyyatın keyfiyyətinin davamlı şəkildə artırılmasına zəmin yaradır. Bu isə, son nəticədə, həm sərnişin, həm də nəqliyyat sistemində çalışan əməkdaş üçün daha əlverişli şərait deməkdir.

Əslində, bütün bu yeniliklərin mərkəzində insan amili dayanır. Sərnişinin dayanacaqda uzun müddət gözləməməsi, avtobusun vaxtında gəlməsi, ödənişin rahat həyata keçirilməsi, yayda sərin, qışda isti salonda hərəkət etmək imkanı və təhlükəsiz nəqliyyat xidmətindən yararlanmaq müasir şəhər həyatının adi standartlarına çevrilməlidir. Naxçıvanda ictimai nəqliyyatın yeni modelinin əsas üstünlüyü də məhz bu standartların formalaşdırılmasıdır. Bu təkcə nəqliyyatda deyil, iqtisadi-mədəni həyatımızın hər sahəsində enerjiyə qənaət, ətraf mühitin qorunması sağlam gələcək prinsiplərinə əsaslanan bir yaşıl davranış modelidir.

İnsanların daha sıx yaşadığı şəhər mühitində təmiz hava, yaşıllıqların qorunması, səs-küyün azaldılması, təhlükəsiz və komfortlu nəqliyyat sistemi bir-biri ilə sıx bağlı məsələlərdir. Belə şəhər mühiti insanların gündəlik həyat keyfiyyətinə, psixoloji rahatlığına və ümumi rifahına birbaşa təsir göstərir. Bu baxımdan, "yaşıl şəhər" anlayışı yalnız ekoloji məsələ deyil, həm də insanın daha rahat və sağlam yaşaması üçün yaradılan müasir həyat standartıdır.

Dünyanın bir sıra ölkələrində velosipedlərdən, elektrikli skuterlərdən, elektrik avtomobillərindən və ictimai nəqliyyatdan geniş istifadə artıq gündəlik həyatın bir hissəsinə çevrilib və "yaşıl davranış" bir kodeks kimi qəbul edilib. İnsanların şəxsi nəqliyyat vasitəsindən asılılığının azaldılması, ictimai nəqliyyatın daha əlçatan və komfortlu olması, ekoloji təmiz hərəkət vasitələrinə üstünlük verilməsi şəhər mədəniyyətinin mühüm göstəricilərindən hesab olunur.

Bu isə təkcə indiki deyil, gələcək nəsillərin də maraqlarına xidmət edən bu strateji yanaşma kimi ölkəmizdə də dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Belə ki, 2021-ci il 2 fevral tarixində qəbul olunmuş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də qarşıya qoyulan əsas hədəflərdən biri "təmiz ətraf mühitin və "yaşıl artım" ölkəsinə çevrilmənin təmin edilməsidir. Bu, digər prioritetlərlə birgə Birləşmiş Millətlər Təşkilatının "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"dən irəli gələn öhdəliklərin icrası istiqamətində də xüsusi əhəmiyyət kəsb edir.





Naxçıvanda elektrikli avtobusların tətbiqi həmin strateji yanaşmanın şəhər səviyyəsində konkret ifadəsidir. Çünki "yaşıl nəqliyyat"ın mahiyyəti yalnız elektrik mühərrikli avtobusların küçələrdə hərəkət etməsindən ibarət deyil. Əsas məsələ şəhər sakinlərinin daha təmiz, sakit, təhlükəsiz və komfortlu nəqliyyat mühitinə alışması, ekoloji məsuliyyətin gündəlik həyatın bir hissəsinə çevrilməsidir.

Naxçıvanda şəhər həyatının müasir standartlara uyğunlaşması baxımından ictimai nəqliyyatın yenilənməsi ilə yanaşı, alternativ hərəkət vasitələrinin inkişafı da diqqətdə saxlanılmalıdır. Hazırda şəhərimizdə velosiped zolaqlarının mövcudluğu bu istiqamətdə müəyyən imkanlar yaradır.

Elektrikli ictimai nəqliyyatın digər mühüm üstünlüyü onun şəhər sakinləri üçün daha əlçatan və bərabərhüquqlu nəqliyyat imkanları yaratmasıdır. Müasir şəhərdə ictimai nəqliyyatdan tələbələr, yaşlı insanlar, fiziki məhdudiyyətli şəxslər, işləyən vətəndaşlar, eləcə də şəhərə gələn qonaqlar istifadə edirlər.

Naxçıvanda həyatın səhər erkən saatlardan başlayaraq gecə saatlarınadək davam etdiyi nəzərə alınarsa, ictimai nəqliyyatın hərəkət qrafikinin şəhərin real sosial ritminə uyğunlaşdırılması da mühüm məsələdir. Xüsusilə qış aylarında günün daha tez başa çatdığı vaxtlarda sakinlərin işdən, təhsildən və digər gündəlik fəaliyyətlərdən sonra rahat şəkildə evlərinə qayıda bilməsi şəhər xidmətlərinin keyfiyyət göstəricilərindən biridir. Müasir, səssiz, rahat və ekoloji təmiz avtobusların istifadəsi bu baxımdan Naxçıvan sakinlərinin gündəlik həyatına mühüm rahatlıq gətirəcək.

Ekotəmiz avtobusların tətbiqi həm də böyüyən şəhərlərə xas olan tıxac problemini də aradan qaldıran ən yaxşı üsuldur. Xüsusən günün pik saatlarında fərdi avtomobillərin yaratdığı tıxaclar Naxçıvanda da artıq özünü göstərən ciddi problem kimi bu məsələyə olan diqqəti daha da artırır. Ona görə də elektrikli avtobusların tətbiqi şəhərimizin daha müasir sima qazanmasına xidmət etməklə Naxçıvanın gələcəkdə tamamilə "yaşıl şəhər" modelinə keçidi üçün də mühüm baza formalaşdırır.

Digər tərəfdən, komfortlu və etibarlı ictimai nəqliyyat fərdi avtomobillərdən istifadənin müəyyən qədər azalmasına da şərait yarada bilər. Bu isə pik saatlarda yaranan sıxlığın azaldılması baxımından əhəmiyyətlidir. Bu mənada, Naxçıvanda elektrikli avtobusların istifadəyə verilməsi şəhərin nəqliyyat sistemində yeni mərhələnin başlanğıcıdır. Sakit hərəkət edən, komfortlu salonu, müasir idarəetmə sistemi və ekoloji üstünlükləri ilə seçilən bu avtobuslar şəhər sakinlərinin gündəlik həyatına yeni rahatlıq gətirməklə yanaşı, Naxçıvanın müasir və insanmərkəzli şəhər kimi formalaşmasına da öz töhfəsini verəcək.

Beləliklə, Naxçıvanda elektrikli avtobusların istifadəyə verilməsi şəhərin nəqliyyat sistemində, sadəcə, texniki yenilənmə deyil, daha geniş inkişaf prosesinin mühüm tərkib hissəsidir. Bu dəyişiklik ekoloji təmiz nəqliyyatın tətbiqi ilə yanaşı, şəhər xidmətlərinin müasir texnologiyalar əsasında qurulmasına, sərnişin rahatlığının və təhlükəsizliyinin artırılmasına, insanların gündəlik həyat keyfiyyətinin yüksəldilməsinə xidmət edir.

Əslində, komfortlu şəhər yalnız müasir binaları, geniş küçələri və yeni infrastrukturu ilə deyil, insanın gündəlik həyatını nə qədər rahat təşkil etməsi ilə ölçülür. Vaxtında gələn avtobus, təmiz və sakit nəqliyyat vasitəsi, rahat ödəniş sistemi, təhlükəsiz hərəkət, əlçatan xidmət və sağlam şəhər mühiti bu komfortun ayrılmaz hissələridir. Naxçıvanda həyata keçirilən yeni ictimai nəqliyyat modeli də məhz bu yanaşmanı ön plana çıxarır.

Bu baxımdan, elektrikli avtobusların şəhər həyatına daxil olması gələcək üçün daha böyük imkanların başlanğıcı kimi qiymətləndirilə bilər. İctimai nəqliyyatın inkişafı, alternativ hərəkət vasitələrinin təşviqi, yaşıllıqların qorunması və ekoloji davranış mədəniyyətinin formalaşması bir-birini tamamlayan proseslərdir. Bu proseslər davamlı xarakter aldıqca Naxçıvanın müasir, rahat, təhlükəsiz və ekoloji cəhətdən dayanıqlı şəhər modelinə yaxınlaşması da sürətlənəcək. Bu gün küçələrində elektrikli avtobusların hərəkət etdiyi Naxçıvan, əslində, gələcəyin şəhər modelinə doğru yeni bir addım atır. "Yaşıl nəqliyyat" bu yolun yalnız başlanğıcıdır. Əsas hədəf isə insanın özünü rahat, təhlükəsiz və sağlam hiss etdiyi, müasir texnologiyanın təbiətlə uzlaşdığı, şəhər həyatının keyfiyyətinin davamlı yüksəldiyi Naxçıvan yaratmaqdır. Bu mənada, "yaşıl nəqliyyat" yalnız nəqliyyat vasitəsinin dəyişməsi deyil, şəhərin gələcək həyat fəlsəfəsinin dəyişməsidir.



**Əli CABBAROV**

# Naxçıvanda şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 68 mənzil təqdim edilib











Avqustun 19-da Naxçıvan şəhəri və muxtar respublikanın rayonlarında şəhid ailələrinə və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə yeni mənzillər təqdim edilib.

Prezident İlham Əliyevin 12 avqust 2026-cı il tarixli Sərəncamında qeyd edildiyi kimi, Naxçıvan Muxtar Respublikasında şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslər üçün daha 68 mənzil ayrılıb.

Mənzillərin təqdim edilməsi mərasimlərində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov, Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Hidayət Abdullayev, Naxçıvan Muxtar Respublikasının Baş naziri Cabbar Musayev, Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Fərid Bağırzadə, həmçinin şəhər və rayon icra hakimiyyətlərinin başçıları iştirak ediblər.

Tədbirlərdə bildirilib ki, şəhid ailələrinin və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzillə təminatına Ümummilli Lider Heydər Əliyevin tapşırığı ilə ötən əsrin 90-cı illərində başlanılıb. Prezident İlham Əliyevin bu kateqoriyadan olan vətəndaşlara göstərdiyi xüsusi diqqət və qayğı nəticəsində sosial müdafiə tədbirləri, o cümlədən mənzil təminatı proqramı ardıcıl şəkildə genişləndirilib. Zəfərlə başa çatan Vətən müharibəsindən sonrakı dövrdə proqramın miqyası beş dəfə artırılıb. Postmüharibə dövründə 7300, ümumilikdə isə indiyədək 16 mindən çox mənzil şəhid ailələrinə və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə təqdim edilib.

Naxçıvan Muxtar Respublikasında da bu istiqamətdə həyata keçirilən tədbirlər davamlı xarakter daşıyır. Avqustun 19-da daha 68 şəhid ailəsi və müharibə ilə əlaqədar əlilliyi olan şəxs yeni mənzillə təmin olunub. Ümumilikdə isə ötən dövrdə muxtar respublikada bu kateqoriyadan olan vətəndaşlara 400-dək mənzil təqdim edilib.

Təqdim olunan mənzillərin 29-u Naxçıvan şəhərində, 23-ü Şərur rayonunda, digər mənzillər isə Babək, Ordubad, Culfa, Şahbuz və Kəngərli rayonlarında inşa edilmiş yeni çoxmənzilli yaşayış binalarında yerləşir.

Mənzillərlə təmin olunan şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslər göstərilən diqqət və qayğıya, onlar üçün həyata keçirilən sosial dəstək tədbirlərinə və bu gün yeni mənzillərlə təmin olunmalarına görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

## Ölkəmizdə indiyədək şəhid ailələri və müharibə əlillərinə 16 mindən çox mənzil verilib



“Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şəhid ailələrinin, müharibə iştirakçılarının və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Bu istiqamətdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həyata keçirilən mühüm proqramlardan biri də qeyd olunan kateqoriyalara aid vətəndaşların mənzil-məişət şəraitinin yaxşılaşdırılmasıdır. Proqram çərçivəsində indiyədək 16 mindən çox mənzil vətəndaşlara təqdim olunub”.

Bu sözləri Naxçıvanda jurnalistlərə müsahibəsində Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Hidayət Abdullayev deyib.

O qeyd edib ki, bu proqramın davamı olaraq Naxçıvanda keçirilən tədbirdə daha 68 mənzil öz sahiblərinə təqdim edilib. Bununla yanaşı, şəhid ailələri və müharibə iştirakçıları üçün müxtəlif sosial dəstək tədbirləri də davam etdirilir. Onların yüksək texnologiyalı protezlərlə və avtomobillərlə təmin olunması, həmçinin reabilitasiya xidmətlərinə cəlb edilməsi istiqamətində işlər aparılır.

“Artıq proqram çərçivəsində 7700-dən çox vətəndaş avtomobillə təmin edilib. Bir daha əmin etmək istərdim ki, nazirlik tərəfindən bu proqramlar bundan sonra da tam və geniş şəkildə həyata keçiriləcək”, – deyə nazir müavini əlavə edib.

## Naxçıvanda indiyədək şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 400-ə yaxın mənzil təqdim olunub



“Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ardıcıl və genişmiqyaslı tədbirlər həyata keçirilir. Sosial proqramların əsas məqsədlərindən biri vətəndaşların rifahının yaxşılaşdırılması, onların sosial təminatının gücləndirilməsi və məmnunluğunun təmin edilməsidir. Təbii ki, dövlət siyasətinin əsas istiqamətlərindən biri də şəhid ailələrinin və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasıdır. Prezident İlham Əliyevin 2026-cı il 12 avqust tarixli Sərəncamına uyğun həyata keçirilən tədbirlər çərçivəsində Naxçıvanda şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslər mənzillərlə təmin olunur. Bu gün həmin kateqoriyalara aid vətəndaşlara 68 mənzil təqdim edilib”.

Bu sözləri jurnalistlərə müsahibəsində Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Fərid Bağırzadə deyib.

Nazir qeyd edib ki, təqdim olunan 68 mənzilin 29-u Naxçıvan şəhərində, 23-ü Şərur rayonunda, digər mənzillər isə Babək, Culfa, Ordubad, Şahbuz və Kəngərli rayonlarında yerləşən yeni çoxmənzilli yaşayış binalarındadır: “Bildirmək istəyirəm ki, bu gün təqdim olunan 68 mənzil də daxil olmaqla ötən dövr ərzində Naxçıvan Muxtar Respublikasında şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 400-ə yaxın mənzil təqdim olunub. Təbii ki, həyata keçirilən bu tədbirlər dövlətin şəhid ailələrinə və müharibə iştirakçılarına göstərdiyi yüksək diqqət və qayğının bariz nümunəsidir. Bu siyasət həmin kateqoriyadan olan vətəndaşların sosial rifahının yüksəldilməsinə və layiqli həyat şəraitinin təmin olunmasına xidmət edir”.

# Şəhid ailələri və qazilərə göstərilən diqqət və qayğının növbəti nümunəsi

*Şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzillə təmin olunması dövlət tərəfindən həyata keçirilən sosial siyasətin mühüm istiqamətlərindən biridir. Avqustun 19-da Naxçıvanda daha 68 mənzilin öz sahiblərinə təqdim olunması bu kateqoriyadan olan ailələrin sevincinə səbəb olub. Mənzillə təmin olunan şəhid ailələri və qazilər göstərilən diqqət və qayğını yüksək qiymətləndirərək bu əlamətdar günün onlar üçün xüsusi əhəmiyyət daşıdığını bildiriblər.*

Vətən müharibəsinin itkin şəhidi, “Azərbaycan Bayrağı” ordenli İbrahim Vəlizadənin atası Səməd Vəliyev, ilk növbədə, şəhidlərin və qazilərin xatirəsinin daim uca tutulmasının vacibliyini vurğulayıb. O bildirib ki, şəhid ailələrinə, qazilərə və müharibə veteranlarına mənzillərin təqdim olunması dövlətin onlara göstərdiyi diqqət və qayğının növbəti nümunəsidir.



Səməd Vəliyev qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə bu istiqamətdə həyata keçirilən tədbirlər Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi siyasətin uğurla davam etdirildiyini göstərir.

Şəhid atası bildirib ki, Azərbaycanın bu gün dünyada öz sözünü deyən güclü dövlət kimi tanınmasında şəhidlərin və qazilərin qəhrəmanlığının, eləcə də dövlətin məqsədyönlü siyasətinin mühüm rolu var. Belə tədbirlər isə şəhid ailələrinin, qazilərin və müharibə veteranlarının dövlət qayğısı ilə daim əhatə olunduğunu bir daha nümayiş etdirir.

Ehtiyatda olan mayor Elçin Allahverdiyev qeyd edib ki, şəhid ailələrinə və qazilərə göstərilən diqqət və qayğı dövlət siyasətinin mühüm göstəricilərindən biridir. O bildirib ki, Prezident İlham Əliyevin Naxçıvana son səfərindən sonra muxtar respublikada şəhid ailələri və qazilərin sosial təminatının gücləndirilməsi istiqamətində mühüm addımlar atılıb, DOST Mərkəzi və digər sosial obyektlər istifadəyə verilib.



Mənzillə təmin olunmasının ailəsi üçün böyük sevinc olduğunu deyən Elçin Allahverdiyev yeni evin onların gələcəyə daha böyük ümidlə baxmasına imkan verdiyini vurğulayıb. O, göstərilən yüksək diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlığını ifadə edib.

Şəhid mayor Sadiq Həsənovun qızı İnci Həsənzadə yeni evlərinin olmasından çox sevindiyini deyərək atasının da bu günü görməsini və ailəsinə bu mənzili özünün almasını arzuladığını qeyd edib. Şəhid qızı yeni mənzilin ailəsi üçün böyük əhəmiyyət daşıdığını və burada atasının xatirəsini daim yaşadacaqlarını bildirib.



Zəhra VƏLİYEVA

# Prezidentin Naxçıvan səfəri

## Naxçıvan Dövlət Universitetinin gələcəyini necə formalaşdırır?

Avqustun 11-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Naxçıvan Muxtar Respublikasına səfər ediblər. Dövlət başçısının bu qədim diyara növbəti – dövlət başçısı kimi artıq on yeddinci səfəri özlüyündə çox şey deyir. On yeddi səfər Naxçıvana münasibətin davamlı diqqətdən, ardıcıl və sistemli dövlət siyasətindən qaynaqlandığını göstərir. Son səfər də bunu təsdiqləyən mühüm tədbirlərlə müşayiət olundu: Sənaye Parkının təməlqoyma mərasimindən hərbi hissələrə döyüş bayraqlarının təqdim edilməsinə, Azərbaycan Televiziyasına verilən geniş müsahibədən sosial-iqtisadi inkişafı sürətləndirəcək yeni Sərəncamın imzalanmasına qədər.

Dövlət başçısının Naxçıvana hər səfəri, bir qayda olaraq, konkret layihələr və qərarlarla yadda qalır. Bu dəfə də belə oldu. Səfərdən bir gün sonra – avqustun 12-də Prezident “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında” Sərəncam imzaladı. Sənəd 2026-2027-ci illəri əhatə edən geniş inkişaf paketini nəzərdə tutur və ümumilikdə, 258 milyon manat vəsaitin ayrılmasını müəyyənləşdirir. Vəsait alternativ və bərpa olunan enerji mənbələrinin genişləndirilməsi, yol-nəqliyyat infrastrukturunun yenilənməsi, təhsil və sosial obyektlərin tikintisi, yaşayış fondunun əsaslı təmiri kimi mühüm istiqamətlərə yönəldilir. Bu rəqəmlərin arxasında isə minlərlə insanın gündəlik həyatına təsir edən real dəyişikliklər dayanır. Bu baxımdan, Sərəncam yalnız maliyyə sənədi deyil, Naxçıvanın sosial və iqtisadi inkişafını sürətləndirəcək mühüm Dövlət Proqramı xarakteri daşıyır.

Səfər çərçivəsində təməli qoyulan və açılışı keçirilən obyektlər də bu inkişaf xəttinin ayrı-ayrı istiqamətlərini tamamlayır. Naxçıvan Sənaye Parkı, şəhərin mərkəzində inşa ediləcək beşulduzlu “Naxçıvan” Mehmanxana Kompleksi, “Şəms 1” və “Qərbi Üfüq” Günəş Elektrik stansiyalarında görülən işlər, “Əcəmi Seyrangahı” Mədəniyyət və İstirahət Kompleksində Memar Əcəmi Naxçıvaninin abidəsinin açılışı, Möminə xatun türbəsində aparılan bərpa işləri – bütün bunlar Naxçıvanın sənayeləşmə, energetika, turizm və mədəni irsin qorunması istiqamətlərində paralel şəkildə irəlilədiyini göstərir.

Sərəncamda Naxçıvan Dövlət Universitetinə xüsusi yer ayrılması da təsadüfi deyil. Tələbələr üçün 1000 yerlik müasir yataqxana kompleksinin tikintisi məqsədilə Elm və Təhsil Nazirliyinə 25 milyon manat vəsaitin ayrılması, ilk növbədə, tələbələrin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına xidmət edir. Lakin bunun əhəmiyyəti daha genişdir. Yaxşı yaşayış şəraiti tələbənin təhsil prosesinə, elmi fəaliyyətə və universitet həyatına daha fəal qoşulmasına imkan yaradır. Beləliklə, sosial rifaha yönələn bu investisiya zamanla təhsilin keyfiyyətinə, təhsilin keyfiyyəti isə regionun insan kapitalına çevrilir.

Naxçıvan Sənaye Parkı bunun ən bariz nümunəsidir. 2024-cü ildə imzalanmış Fərmanla yaradılan və hazırda 310 hektarlıq ərazidə formalaşdırılan bu parkın fəaliyyət göstərməsi üçün yalnız istehsal sahələri və texniki infrastruktur kifayət etməyəcək. Burada elektrik-energetika mühəndislərinə, istehsal proseslərini idarə edən mütəxəssislərə, iqtisadçılara, texnoloqlara və digər ixtisaslı kadrlara ehtiyac yaranacaq.

Maraqlıdır ki, Naxçıvan Dövlət Universitetinin özündə də artıq müəyyən müddətdir, Texnologiyalar Parkı fəaliyyət göstərir və gələcəkdə onun imkanlarının daha da genişləndirilməsi nəzərdə tutulur. Deməli, universitet üçün bu model tamamilə yeni deyil. Sənaye Parkının miqyası genişləndikcə regionun əsas ali təhsil müəssisəsi olan NDU-nun burada kadr hazırlığında mühüm rol oynaması təbii gözləntiyə çevrilir. Bu baxımdan, Sənaye Parkı yalnız iqtisadi layihə deyil, universitetin mühəndislik, texnologiya və iqtisadiyyat istiqamətləri üçün real əmək bazarı formalaşdıran mühüm məkandır.

“Şəms 1” və “Qərbi Üfüq” Günəş Elektrik stansiyaları isə NDU ilə sənaye arasında daha fərqli bir əlaqə yaradır. Bərpa olunan enerji yalnız enerji istehsalı məsələsi deyil. Bu sahə fizika, riyaziyyat, mühəndislik, ekologiya və informasiya texnologiyalarının kəsişməsində formalaşan müasir elm və texnologiya istiqamətidir. Naxçıvan Dövlət Universitetində təbiət elmləri, fizika-riyaziyyat və digər əlaqəli istiqamətlər üzrə elmi-pedaqoji potensialın olması bu sahədə yeni imkanlar yaradır. Şəhərin özündə real enerji obyektlərinin fəaliyyət göstərməsi isə nəzəri biliklərin praktik təcrübə ilə tamamlanmasına şərait yarada bilər. Tələbənin Günəş elektrik stansiyasına gedərək enerji istehsal prosesini yerində müşahidə etməsi, tədqiqat aparması və istehsalat təcrübəsi keçməsi auditoriyada əldə etdiyi bilikləri real mühitlə əlaqələndirəcək. Bu isə universitet-sənaye əməkdaşlığının ən praktik formalarından biri ola bilər.

“Naxçıvan” Mehmanxana Kompleksi isə başqa bir istiqamətdə yeni tələbat yaradır. Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibəsində Naxçıvanda mehmanxana infrastrukturunun zəifliyinin turizmin inkişafına mane olduğunu xüsusi vurğulayıb. Deməli, yeni və müasir hotel infrastrukturunun yaradılması ilə yanaşı, bu obyektlərdə çalışacaq peşəkar kadrların hazırlanması da vacib məsələyə çevrilir. Naxçıvan Dövlət Universitetinin bu baxımdan mühüm üstünlüklərindən biri artıq formalaşmış beynəlxalq mühitdir. Universitetdə 25 ölkədən 2000-dən çox əcnəbi tələbənin təhsil alması, beynəlxalq mübadilə proqramlarında iştirak və müxtəlif ölkələrdən olan tələbələrlə işləmək təcrübəsi NDU-nun qlobal təhsil mühitinə açıq olduğunu göstərir. “Naxçıvan” Mehmanxana Kompleksi istifadəyə verildikdə burada hotelçilik, turizm menecmenti, xarici dillər və xidmət sahələri üzrə peşəkar mütəxəssislərə ehtiyac artacaq. Bu isə universitetin turizm və xidmət istiqamətlərində təhsil proqramlarını daha da gücləndirməsi üçün real perspektiv yaradır.

Əcəmi Naxçıvaninin abidəsinin açılışı və Möminə xatun türbəsində aparılan bərpa işləri isə NDU ilə Naxçıvanın mədəni irsi arasında başqa bir bağın aktuallığını artırır. Orta əsr memarlıq nümunəsinin bərpası yalnız daşın yenilənməsi demək deyil. XII əsrin memarlıq dilini və tarixi irsini müasir dövrə düzgün şəkildə çatdırmaq üçün arxiv sənədləri, tarixi mənbələr, memarlıq təhlilləri və elmi araşdırmalar tələb olunur. Bu baxımdan, Naxçıvan Dövlət Universitetində tarix, filologiya, memarlıq və digər humanitar istiqamətlər üzrə aparılan elmi araşdırmalar mühüm əhəmiyyət daşıyır.

Memar Əcəmi Naxçıvani irsinin öyrənilməsi və yaşadılması da universitetin qarşısında dayanan mühüm elmi və mənəvi missiyalardan biridir. Naxçıvanın memarlıq məktəbinin ən böyük nümayəndələrindən birinin irsi yalnız tarixi abidə kimi deyil, gələcək memarlar üçün öyrənilməli və yaşadılmalı bir məktəb kimi dəyərləndirilməlidir. Bu baxımdan, Əcəmi irsi ətrafında aparılacaq yeni tədqiqatların, elmi məqalələrin və layihələrin NDU-nun elmi mühitində formalaşması üçün geniş imkanlar var.

Beləliklə, Prezident İlham Əliyevin Naxçıvana son səfəri çərçivəsində diqqətçəkən layihələrə birlikdə nəzər saldıqda qarşımızda , sadəcə, yeni tikinti və infrastruktur xəritəsi görünmür. Bu xəritənin mərkəzində insan kapitalı və onun formalaşdığı əsas məkanlardan biri – Naxçıvan Dövlət Universiteti dayanır.

Sənaye Parkı mühəndis və iqtisadçı, Günəş elektrik stansiyaları fizik, mühəndis və ekoloq, yeni mehmanxana kompleksi turizm və xidmət mütəxəssisi, tarixi-memarlıq abidələrinin bərpası isə tarixçi, tədqiqatçı və memar tələb edir. Bu müxtəlif istiqamətlərin ortaq nöqtəsi isə kadr hazırlığıdır.

Bu mənada, Prezidentin Naxçıvan səfərinin Naxçıvan Dövlət Universiteti üçün əhəmiyyəti yalnız universitetə ayrılan 25 milyon manat və 1000 yerlik yataqxana ilə məhdudlaşmır. Səfər çərçivəsində formalaşan yeni sənaye, enerji, turizm və mədəniyyət infrastrukturu universitet qarşısında yeni və daha böyük vəzifələr qoyur.

Başqa sözlə, Naxçıvanın qarşıdakı illər üçün inkişaf xəritəsi çəkilirsə, həmin xəritədə Naxçıvan Dövlət Universiteti, sadəcə, bir təhsil müəssisəsi kimi deyil, regionun gələcək iqtisadiyyatına, elminə, mədəniyyətinə və insan kapitalına kadr hazırlayan əsas mərkəzlərdən biri kimi görünür.

**Nicat YAQUBOV**
***Naxçıvan Dövlət Universitetinin Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru, filologiya üzrə fəlsəfə doktoru, dosent***



### Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının və qurumlarının rəhbərləri tərəfindən 2026-cı ilin sentyabr ayında şəhər və rayonlarda keçiriləcək vətəndaş qəbullarının cədvəli

| S/n | Qəbulu keçiriləcək mərkəzi icra hakimiyyəti orqanının rəhbəri | Qəbulun keçiriləcəyi şəhər, rayon | Qəbulun keçiriləcəyi gün |
|---|---|---|---|
| 1. | **Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri** Fərid Bağırzadə | Babək | 02.09.2026 |
| 2. | **Naxçıvan Muxtar Respublikası ədliyyə nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən** Hüseyn Səfərov | Şərur | 09.09.2026 |
| 3. | **“Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi” publik hüquqi şəxsin İdarə Heyəti sədrinin müavini, sədr vəzifəsini müvəqqəti icra edən** Nihad Qurbanov | Culfa | 10.09.2026 |
| 4. | **Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəis müavini, rəis vəzifəsini müvəqqəti icra edən** Nurlan Fətəliyev | Sədərək | 10.09.2026 |
| 5. | **Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar naziri** Şahin Mirzəyev | Ordubad | 17.09.2026 |
| 6. | **Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən** Rəşadət Nabatov | Kəngərli | 17.09.2026 |
| 7. | **Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri** Rafail Quliyev | Şahbuz | 22.09.2026 |
| 8. | **Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** İlqar Sadıqov | Ordubad | 23.09.2026 |
| 9. | **Naxçıvan Muxtar Respublikasının təhsil naziri** Elxan Nəcəfov | Culfa | 24.09.2026 |
| 10. | **Naxçıvan Muxtar Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən** Azər Məmmədrəhimov | Babək | 29.09.2026 |

**Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 11$^{00}$-da başlayır.**

# Naxçıvan Regional DOST Mərkəzi

## “Bir pəncərə”, operativlik, şəffaflıq və vətəndaş məmnuniyyəti






Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə avqustun 11-də açılışı olan Naxçıvan Regional DOST Mərkəzində əhaliyə sosial xidmətlər göstərilir. Biz də mərkəzdə yaradılan şərait, göstərilən xidmətlər, vətəndaşların müraciətləri və onların təəssüratları ilə tanış olduq.

Mərkəzə daxil olduğumuz ilk andan diqqətçəkən məqamlardan biri burada xidmət prosesinin vahid məkanda təşkil olunmasıdır. Vətəndaşlar müraciətləri ilə bağlı müxtəlif ünvanlara getmədən “Bir pəncərə” prinsipi əsasında lazımi xidmətlərdən yararlana bilirlər.

Mərkəzin direktor müavini, direktor vəzifəsinin səlahiyyətlərini icra edən Şamil Əliyev bildirir ki, burada 117 əməkdaş və 50 könüllü fəaliyyət göstərir. Mərkəzdə əhaliyə 15 istiqamət üzrə 164 sosial xidmət təklif olunur.

Şamil Əliyevin sözlərinə görə, xidmətlər vətəndaşlara daha operativ, məsuliyyətli və rahat şəkildə təqdim olunacaq: “Mərkəzin xidmətlərindən yararlanmaq üçün vətəndaşın mütləq Naxçıvan şəhərində qeydiyyatda olması tələb edilmir. Muxtar respublikanın digər rayonlarında qeydiyyatda olan sakinlərlə yanaşı, digər vətəndaşlar da burada təqdim olunan xidmətlərdən yararlana bilərlər. Mərkəzin ilk iş günləri artıq hansı xidmətlərə daha çox ehtiyac olduğunu da göstərib. Ən çox müraciətlər pensiya, sosial müavinət, əmək və məşğulluq istiqamətləri üzrə qeydə alınıb. İlk günlər ərzində pensiya və əmək-məşğulluq istiqamətləri üzrə, ümumilikdə, 200-dən çox müraciətin daxil olması vətəndaşların bu xidmətlərə olan tələbatını göstərir”.



Mərkəzin əsas məqsədlərindən biri isə vətəndaşın vaxtına qənaət etmək, müraciət prosesini mümkün qədər sadələşdirmək və xidməti daha əlçatan etməkdir. Bu xüsusilə yaşlılar, veteranlar, əlilliyi olan şəxslər və sosial dəstəyə daha çox ehtiyacı olan digər həssas qruplar üçün əhəmiyyətlidir. Mərkəzin övladlığagötürmə, əlillik, sosial xidmətlər üzrə sosial agenti Həsən Hüseynov da vətəndaşlarla ünsiyyətdə bu məqamın ön planda olduğunu deyir.

Onun sözlərinə görə, hər bir müraciət diqqətlə dinlənilir, vətəndaşın sualları cavablandırılır və məsələ qanunvericiliyin tələbləri çərçivəsində həll edilməyə çalışılır. Həsən Hüseynov bildirir ki, burada bütün vətəndaşların müraciətləri ayrı-seçkiliyə yol verilmədən qəbul edilir və hər bir müraciətə fərdi yanaşılır. Vətəndaşlarla ünsiyyətdə səbirli və anlayışlı davranmağa xüsusi diqqət yetirilir.

Bunun necə həyata keçirildiyini mərkəzə müraciət edən vətəndaşların timsalında da görmək mümkündür.

Pensiyası ilə bağlı müraciəti olan Gülüzar Həsənova bunun üçün DOST Mərkəzinə yaxınlaşıb. O, pensiya xidməti üzrə əməkdaşlara müraciət etdikdən sonra məsələsinin qısa müddət ərzində həll olunduğunu dedi:

“Pensiyamla bağlı mərkəzə müraciət etdim. Məsələmə diqqətlə yanaşdılar və qısa müddətdə həll edildi. Çoxdandır, bu mərkəzin açılmasını gözləyirdik. Burada belə yaxşı xidmətin yaradılması bizi sevindirir. Çox razı qaldım”, – deyə Gülüzar Həsənova qeyd etdi.

Məşğulluq məsələsi ilə bağlı mərkəzə müraciət edən Turanə İbrahimovanın da ilk təəssüratı müsbət olub. O, müraciətinin əməkdaşlar tərəfindən diqqətli, gülərüz və səmimi şəkildə qarşılandığını deyir. Turanə İbrahimovanın sözlərinə görə, ona müraciəti ilə bağlı ən qısa zamanda geri dönüş ediləcəyi bildirilib.

“Göstərilən xidmətdən çox razı qaldım. Heyətin peşəkar və nəzakətli münasibəti, xidmət prosesində müasir və innovativ texnologiyalardan istifadə olunması məndə çox müsbət təəssürat yaratdı”, – deyə o qeyd etdi.

Vətəndaşların qarşılanmasında və xidmətlərə yönləndirilməsində isə DOST könüllülərinin də öz payı var. Mərkəzdə fəaliyyət göstərən könüllülər vətəndaşlara lazımi istiqaməti göstərir, xidmət bölmələrinin müəyyənləşdirilməsində kömək edir və xüsusilə yaşlı vətəndaşların mərkəzdə rahat hərəkət etməsinə dəstək olurlar. Bu fəaliyyət gənclər üçün də insanlarla birbaşa ünsiyyətdə olmaq, müxtəlif müraciətləri müşahidə etmək və iş təcrübəsi qazanmaq baxımından əhəmiyyətlidir.

Mərkəzdə diqqətçəkən digər məqam isə sosial xidmətlərlə yanaşı, həssas qrupların yaradıcılıq və iqtisadi fəallığının dəstəklənməsi üçün yaradılan imkanlardır. Burada Naxçıvan Regional İnformasiya Mərkəzinin  və DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin benefisiarları tərəfindən hazırlanmış bədii oyma, xalçaçılıq, dulusçuluq, təsviri incəsənət, vitraj, floristika və digər sənət növləri üzrə əl işlərindən ibarət sərgi də nümayiş olunur. Bu işlərin hər biri fərqli bir bacarığın, əməyin və yaradıcılığın nəticəsidir. Həmin əl işlərinin *“dostart.az”* portalı vasitəsilə onlayn satışının həyata keçirilməsi isə təşəbbüsü daha da əhəmiyyətli edir. Məqsəd yalnız hazırlanmış məhsulların nümayişi deyil, həssas qruplardan olan şəxslərin yaradıcılıq potensialının üzə çıxarılması, iqtisadi fəallığının dəstəklənməsi və onların əmək bazarına inteqrasiyasına imkan yaradılmasıdır.





Mərkəzdə müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin yüksək texnologiyalı protezlərlə təminatı üçün Tibbi-Sosial Ekspertiza Komissiyasının otağının yaradılması da diqqət çəkir. Qabaqcıl beynəlxalq istehsalçı şirkətlərin məhsulları olan bu protezlər istifadəçilərə daha sərbəst və təhlükəsiz hərəkət etmək, müxtəlif səth və sürətlərə uyğunlaşmaq, sosial həyata və əmək fəaliyyətinə daha sürətli inteqrasiya olunmaq imkanı yaradır.

Beləliklə, Naxçıvan Regional DOST Mərkəzində fəaliyyətin ilk günlərindən etibarən vətəndaş müraciətlərinin operativ şəkildə həlli ilə yanaşı, sosial dəstəyə ehtiyacı olan müxtəlif qruplar üçün də imkanlar yaradılıb. Burada xidmət alan vətəndaşların müraciətləri, əməkdaşların işi və könüllülərin dəstəyi vahid məqsədə – sosial xidmətlərin daha əlçatan, rahat və çevik təşkilinə xidmət edir. İlk iş günlərində mərkəzə olan müraciətlər və vətəndaşların müsbət təəssüratları isə bu yeni xidmət məkanına olan etimadın göstəricisidir.

**Səmayə RƏSULOVA**

## Naxçıvan Regional DOST Mərkəzinin xidmətlərindən artıq 300-dək vətəndaş faydalanıb

Yenicə fəaliyyətə başlayan Naxçıvan Regional DOST Mərkəzinin xidmətlərindən elə ilk günlərdə artıq 300-dək vətəndaş faydalanıb. Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən bildirilib.

Vətəndaşlar, əsasən, pensiya və müavinət məsələləri, sosial xidmətlərə, aktiv məşğulluq proqramlarına cəlb edilmə, əlillik və sair məsələlərlə bağlı müraciət ediblər. DOST konsepsiyasına uyğun olaraq onlara müxtəlif sosial istiqamətlər üzrə xidmətlərin “Bir pəncərə” prinsipi əsasında, müasir və şəffaf, çevik şəkildə göstərilməsi təmin edilib.

Avqustun 11-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə açılışı olan mərkəzdə, digər sosial xidmətlərlə yanaşı, əlilliyi olan şəxslərin tibbi-sosial ekspertizası, reabilitasiyası və xüsusi vasitələrlə təminatı üçün göndərişlərin rəsmiləşdirilməsi də həyata keçirilir.

164 sosial xidmətin vahid məkanda təqdim edildiyi, 117 işçi və 50 könüllünün çalışdığı mərkəzdə gün ərzində orta hesabla 500-600 vətəndaşın qəbulu nəzərdə tutulur.

Naxçıvan Regional DOST Mərkəzində də digər DOST mərkəzlərində olduğu kimi, vətəndaşlara xidmətlər qeydiyyat məhdudiyyəti olmadan göstərilir. Bu da mərkəzin harada qeydiyyatda olmalarından asılı olmayaraq, hər bir vətəndaş üçün ən yaxın, ən əlçatan və çevik sosial xidmətlərin ünvanı olduğunu bir daha təsdiq edir.

Yaxın dövrdə Naxçıvan Muxtar Respublikasının bütün rayonlarında DOST qəbul şöbələri də yaradılacaq.



# Mən də bu dünyada dünya kimiyəm...



Sonuncu dəfə bu hissi Musa Yaqubun cismani ayrılığında yaşamışdım. Onda tələbə idim. Hələ ədəbiyyata, sözə yeni-yeni könül bağlayan bir gənc üçün Musa Yaqub kimi bir şəxsiyyətin itkisi çox ağır gəlmişdi mənə. Düzdür, onun vəfatından sonra bir neçə şair və yazıçımızı son mənzilə yola salmışdıq: Xalq yazıçısı Elçin, Məmməd İsmayıl, Vidadi Babanlı, Əlisəmid Kür... Ancaq heç birinin itkisi zamanı bu hisslərə qapılmamışdım. Ta ki həmin xəbəri oxuyana qədər. Bəli, bir səhər çağı bütün xəbər saytları sevgi şairimiz Nəriman Həsənzadənin əbədi ayrılıq xəbərini sevənlərinə çatdırdı. O zaman anladım, bu nəhayətsiz darıxmağın, qəlbimdə qövr edən sıxıntının adı nə imiş... Sən demə, gecə ilə gündüzün qovuşduğu, günün aydınlığa çıxdığı bir vaxtda bir şair dünyanı tərk edibmiş...

Oxucularının dilində əzbər olan bir şeirində "Bu həyat nərdivandı", – deyirdi Nəriman Həsənzadə. Həyatı ədəbiyyat adlı bir dünya hesab edirdi, şeiri, sözü isə o dünyanın zirvəsinə qalxmaq üçün bir nərdivan. Uzun, mənalı bir həyat yaşayan şair ömür nərdivanının 95-ci pilləsinə çatdı... Bəlkə də, əsrə bərabər olan ömründə ilk dəfə nəfəsini belə rahat dərdi, əvvəlki kimi təntimədən, tələsmədən dönüb həyat adlı pəncərəsindən geriyə baxdı. Göz işlədikcə axıb gedən ömür mənzərəsi qarşısında gözləri doldu. O, baxdığı bu xatirə ümmanında nələri görmədi ki... Tələbəlik illəri, qələmlə, kağızla baş-başa qaldığı günləri, ilk sevgisini, övladlarını ilk qucağına aldığı anları... Həyatı kinolent kimi keçdi gözləri qarşısından. Ancaq bu dəfə keçmişin xiffətini çəkmədi, o günlər üçün darıxmadı. Çünki bundan sonra yazacaq sözünün, yaşayacaq xatirələrinin olmadığını bilirdi. Həyat nərdivanının sonuncu pilləsi əbədiyyət idi... Və o artıq həmin mərtəbəyə – əbədiyyət adlı ucalığa çatmışdı...

O, sevginin, səadətin ən gözəlini yaşamışdı vaxtilə. Bir şairin çata biləcəyi ən yüksək mərtəbələrə çatmış, bir şairin eşidə biləcəyi ən xoş sözləri eşitmişdi. Hələ Xalq şairi fəxri adını almamışdan əvvəl dillər əzbəri olan şeirləri ilə xalqın sevimli şairi ola bilmişdi. Gənc yaşlarından könlünü Sara adında bir xanıma vermiş, bu saf, təmiz məhəbbətlə bir ailənin təməlini qoymuşdu. Sara xanım da əsl Azərbaycan qadını kimi fədakar həyat yoldaşı, zəhmətkeş ana, qayğıkeş sirdaş olmuşdu şairə. Bəlkə də, Nəriman Həsənzadənin yanında başqa bir qadın olsaydı, o bu cür uğurlar qazana bilməzdi. Çünki Sara xanım bütün həyatını, varlığını, ruhunu Nəriman Həsənzadəyə həsr etmişdi. O hər dəfə yeni şeir yazanda ilk dinləyicisi Sara xanım olurdu. Onlar birlikdə harasa qonaq gedəndə Sara xanım məclisin ən şirin yerində Nəriman Həsənzadədən xahiş edirdi ki, yeni yazdığı şeiri dinləyicilərə oxusun. Bir sözlə, həyat yoldaşının bir kəlmə xoş sözü, xoş siması onun üçün bütün mükafatlardan üstün idi. Ancaq çox təəssüf ki, şair canı qədər sevdiyi həyat yoldaşını çox vaxtsız itirdi...

*Gözüm yolda qalıb, qulağım səsdə,*
*Gedibsən, qalmışam mən qonaq kimi.*
*Sən yerin altında, mən yerin üstə,*
*Biz ayrı düşmüşük kök budaq kimi.*

Nəriman Həsənzadə şeirlərinin birində həyat yoldaşı Sara xanımın həyatdan erkən köçməsinin acısını qızı ilə bölüşür. "Ürəyim ananı istəyir, qızım" adlı həmin şeirdə Nəriman Həsənzadə yazır:

*Qaşlarım qaradı, saçlarım ağdı,*
*Təbiət şəklimi çəkir yenidən.*
*Hamı bu dünyada qocalacaqdı,*
*Amma tək qocalmaq dərd verir hərdən.*

Çox səmimi, kövrək şeirləri, həzin, pıçıltılı danışıq tərzi və həlim xasiyyəti ilə hər kəsdə xoş ovqat yaradan Nəriman Həsənzadəni görmədən də tanımaq olur. Çünki onun lətif, xoş əhvali-ruhiyyəli şeirlərini oxuduqca gözlərimiz qarşısında ömrünün müdriklik çağını yaşayan, qələmlə-kağızla baş-başa qalan bir şair obrazı canlanır. Bir müsahibəsində "Şeirlərimi hələ də makinada yazıram", – deyirdi şair. Keçmişə, milli-mənəvi dəyərlərə o qədər bağlı idi ki, illərlə şeirlərinə sirdaş olan, az qala hər anının şahidinə çevrilən sevimli makinasından ayrılmaq istəmirdi. Bu əslində, illərdir, qəlbində lövbər salmış, yaddaşın ən məhrəm guşəsində abidələşmiş keçmişlərə, xatirələrə bağlılıq idi...

*Söhbətin şirindi, gülüşün təzə,*
*Saldın ürəyimi eşqə, həvəsə.*
*Sən ayaq basdığın o yola, izə,*
*Çəmənə, səhraya qurban olaram.*

Nəriman Həsənzadənin şeirlərini oxuduqca bir anlıq başqalaşırsan, sanki şairin şeirlərindən doğulmuş yepyeni bir adam olursan. Ağrın-acın həmən unudulur. İçinə bir nur seli axır, ətrafında olan, həmin anda ruhunu saran naqisliklər yox olur, ümidə doğru boylanırsan, sevgiyə doğru boylanırsan... Hətta onun şeirlərinin nəbzini tutan aşiq də, məşuq da sətirlər qarşısında acizləşir, nakam sevgidə günahkar axtarmaqdan əl çəkir. Bir misrasında nə gözəl deyir Nəriman Həsənzadə:

*Hayanda durdumsa səhər, ya axşam,*
*Aradın sən məni, gördün sən məni.*
*İndi gözlərinin qabağındayam,*
*Harayında durum ki, görəsən məni?*

Nəriman Həsənzadə böyüklüyü ovucları qədər olan şair qəlbinə yalnız saf sevgini, təmiz məhəbbəti sığdırmamışdı. Vətənə olan təmənnasız eşqi ilə də yazıb-yaradırdı şair. Qələmini hər dəfə bu mövzuya köklədikcə xalqın sinəsində qövr edən yurd-yuva həsrətinə toxunur, misraları bir zamanlar gözləri qarşısında baş verən faciələrə, Qarabağın qara taleyinə ağlayırdı elə bil. Lakin taleyin qismətinə bax ki, 70 ildən artıq yaradıcılıq yolunda Qarabağımızın işğalını görən, soydaşlarımızın el-oba həsrətinə şahid olan şair Vətənimizin xoş günlərindən də yaza bildi. Bu, Yaradanın ona bəxş etdiyi ən ali mükafat idi. Bir zamanlar Azərbaycan xalqının qan yaddaşından yazan qələmi indi ordumuzun şan yaddaşını misra-misra, sətir-sətir ruhumuza köçürürdü:

*Od ürəkli, od nəfəsli diyarımsan,*
*Ocağına canım qurban, Azərbaycan!*
*Əzilsən də, əyilməyən vüqarımsan,*
*Bu çağına canım qurban, Azərbaycan!*

Şairin həyat hekayəsinə nəzər salanda görürük ki, onun ağrı-acılı günləri yalnız həyat yoldaşının ölümü ilə yekunlaşmayıb. Hələ uşaqlıqdan çətin günlər yaşayan, İkinci Cahan müharibəsinin dəhşətlərini görən şair ana nəvazişindən, ata qayğısından da erkən yaşda məhrum olub. Həzin şeirləri ilə yanaşı, öz ömür yolundan danışdığı bir neçə poemasında bu hadisələrə toxunub. Dostlarının sözlərinə görə, ataanasını belə vaxtsız-vədəsiz itirməsi onun uşaq qəlbində o qədər yer etmişdi ki, qızı Xatirə xanımı "anam", oğlu Nazim bəyi isə "atam" deyib çağırırdı. Hətta o, yazdığı "Nabat xalanın çörəyi" povestində uşaqlıq, yeniyetməlik, gənclik illərinin acılı- şirinli xatirələrini, anasının tək oğlunu böyütmək üçün düşdüyü çətinlikləri, keçirdiyi həyəcanları və göstərdiyi mətanəti də qələmə alıb:

*Allahım, əqrəblər nə yaman gedir,*
*Gözüm baxa-baxa bir zaman gedir.*
*Bizi görüşdürür, bizi ayırır,*
*Dünyada gizli bir imtahan gedir.*

Adını qeyd etdiyimiz şeirləri ilə yanaşı, "Könlüm şeir istəyir", "Unudulmaz günlər", "Yadına düşəcəyəm", "Niyə demədiniz", "Zümrüd quşu", "Mənim gecəm-gündüzüm", "Sən bağışladın" kitabları ədəbi-ictimai mühitdə Xalq şairimizə böyük şöhrət qazandırıb. Bununla belə Nəriman Həsənzadə 90-cı illərdən etibarən qələmə aldığı "Şəhid atası Şərif qağaya məktub", "Qafqaz", "Cavid", "Səfirə məktub", "Qarabağdan gələn var", "Xarıbülbül", "Qaçaq Kərəm", "Nuru paşa", "Nizami", "Sözü tara verin" kimi poemaların da müəllifi idi. Zəngin yaradıcılıq yolu ilə ədəbiyyatımızda əbədi iz buraxan Nəriman Həsənzadənin şəxsiyyəti və yaradıcılığı dövlətimiz tərəfindən də qiymətləndirilmişdi. 2005-ci ildə dövlət başçımızın müvafiq Sərəncamı ilə Xalq şairi fəxri adına layiq görülən şair "Şöhrət", "Şərəf", "İstiqlal" və "Heydər Əliyev" ordenlərinin laureatı idi.

Xalq şairi Məmməd Araz Nəriman Həsənzadə yaradıcılığından bəhs edərək yazırdı: "Mövzu müxtəlifliyi, insan arzularının, cəmiyyət həyatının və zəmanənin çoxcəhətli, zəngin boyalarla işlənməsi hər bir poetik əsərin məziyyətidir. Nəriman Həsənzadənin poeziyası bu cəhətdən də oxucuda dərin maraq oyadan poeziyadır. İdeala, gözəlliyə, mənəvi saflığa sadiq olan insanlıq və vətəndaşlıq hisslərini şeirlərinin canına, ruhuna hopduran bu şair daim axtarışdadır, onun poetik fikri yorulmaq bilmir, oxucuya arası kəsilmədən yeni əsərlər təqdim edir".

Yaradıcılığı və sənət dünyası ilə oxucularının yaddaşında əbədi iz buraxan Xalq şairimiz Nəriman Həsənzadə avqustun 1-də haqq dünyasına qovuşdu. "Mən də bu dünyada dünya kimiyəm", – deyən şairi böyük sayğı və ehtiramla anırıq...

✍ **Məcid RƏŞADƏTOĞLU**

# Məqsədim reytinqdə daha ön sıralarda yer almaqdır




Cüdo üzrə U-17 yeniyetmələr arasında keçirilən Liqa yarışının III turunda Naxçıvan cüdoçuları növbəti uğura imza atıblar. Yarışın son turunda bürünc medal qazanan Naxçıvan Şəhər Uşaq-Gənclər İdman Məktəbinin yetirməsi Ləman Bağırova bununla yanaşı, ölkə reytinq cədvəlində üçüncü pillədəki yerini də qoruyub saxlayıb. Gənc idmançı bizə əldə etdiyi nəticənin onun üçün böyük motivasiya olduğunu bildirərkən məşqçi-müəllimi Orxan Quliyev də Ləmanın inkişafından, gələcək hədəflərindən və Naxçıvan cüdosunun perspektivindən danışıb.

Təəssüratlarını bölüşən Ləman Bağırova Liqa yarışının son turunun onun üçün xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayıb: "Bu turnirə böyük məsuliyyətlə hazırlaşmışdım. Əsas məqsədim uğurlu çıxış edərək reytinqdəki mövqeyimi qorumaq idi. Tatamidəki görüşlər kifayət qədər gərgin keçsə də, son saniyəyə qədər mübarizə apardım və bürünc medala sahib oldum. Bu, çəkdiyim əziyyətin bəhrəsidir. Reytinq cədvəlində ilk üçlükdə qalmaq mənə qürur verməklə yanaşı, növbəti yarışlarda daha yüksək pillələrə qalxmaq üçün böyük stimul olur. Ötən il U-14 yaş kateqoriyasında qızıl medal qazanmışdım. Bundan əmi bir həftə əvvəl isə Bakı şəhərində keçirilən 14 və 16 yaşadək cüdoçular arasında "Avropa Cüdo Ümidləri" turnirində 40 kq çəki dərəcəsində bürünc medal qazanaraq beynəlxalq yarışın mükafatçıları sırasında yer aldım. Bu uğur mənə özümə inam verdi və Liqa yarışına daha böyük motivasiya ilə çıxmağıma kömək etdi. Hər yeni yaş qrupunda rəqabət daha da sərtləşir. Lakin çətinliklərə baxmayaraq, məqsədim daim öz üzərimdə işləmək, nəticələrimi təkmilləşdirmək və gələcəkdə beynəlxalq arenalarda bayrağımızı ucaltmaqdır".

Məşqçi-müəllim Orxan Quliyev isə Liqa yarışlarının yeniyetmə cüdoçuların inkişafı və reytinqinin formalaşması baxımından müstəsna rol oynadığını qeyd edib: "Ləman məşqlərə son dərəcə məsuliyyətlə yanaşan, məqsədyönlü və intizamlı idmançıdır. Məhz bu keyfiyyətləri ona qısa müddətdə belə uğurlu nəticələr qazanmağa imkan verir. Liqa yarışından cəmi bir həftə əvvəl Bakı şəhərində keçirilən "Avropa Cüdo Ümidləri" beynəlxalq turnirində bürünc medal qazanması da bunun bariz nümunəsidir. Artıq qarşıda bizi daha məsuliyyətli sınaqlar gözləyir. İndi bürünc medal qazansa da, əsas hədəfimiz Ləmanın U-17 yaş kateqoriyasında gələcək yarışlarda məhz qızıl medala sahib olması və beynəlxalq turnirlərdə ölkəmizi layiqincə təmsil etməsidir. İstəyimiz odur ki, o, növbəti turnirlərdə çempionluq sevinci yaşasın. Bunun üçün hazırlıq prosesini planlı şəkildə davam etdiririk və onun potensialına inamımız tamdır".

Ləman Bağırovanın Liqa yarışının III turunda qazandığı bürünc medal və ölkə reytinqində üçüncü pillədəki yerini qoruması onun ardıcıl inkişafının və zəhmətinin bəhrəsidir. Bütün bunlar onun gələcək uğurları üçün möhkəm zəmin yaradır, həm də Naxçıvan cüdo məktəbinin perspektivli idmançılar yetişdirməyə davam etdiyini nümayiş etdirir. Qarşıdakı yarışlarda isə əsas hədəf bu uğurları davam etdirərək reytinqdə daha ön sıralarda yer almaq və beynəlxalq arenalarda yeni nailiyyətlər qazanmaqdır.

✍ **Elnurə CƏFƏROVA**

## *İtmişdir*

Şahbuz rayonu, Kolanı kəndində Cəfərov Əli İbi oğlunun adına verilmiş JN-132$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Qarabağlar kəndində yaşamış Bayramov Xudan İsmayıl oğluna məxsus JN-746$^{A}$ nömrəli, 10209018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Qahab kənd sakini Qasımova Gülsüm Mehdi qızının adına olan JN-069$^{A}$ nömrəli, 10306018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Mərhum Rəhimova Sahab İsmayıl qızına məxsus Ordubad şəhəri, Anbaras küçəsi 6 ünvanında yerləşən fərdi yaşayış evinin 996 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Cəhri qəsəbəsində yaşamış Quliyev Binyət Məmməd oğlunun adına olan JN-666 nömrəli, 1030501 kodlu dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Dəstə kənd sakini Süleymanov Şahvələt Həsənəli oğlunun adına olan JN-963$^{B}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, İstiqlal küçəsi, bina 73, mənzil 67-də Cəfərov Arzu Zahid oğlunun adına olan 6699 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Əliyev Gənc Əli olğuna məxsus Culfa rayonu, Göydərə kəndində yerləşən qeyri-yaşayış binasının 13.03.2008-ci il tarixli 31 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Danyeri kəndində yaşamış İsmayılova Nərgiz Bayram qızına məxsus JN-220$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Yuxarı Aralıq kəndində yaşamış Məmmədov Nazim Ələkbər oğluna məxsus JN-260$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI
Baş redaktor:
RƏMZİ TAHİRLİ

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Vöen: 0200065441

Çapa imzalanmışdır 00:00
Tiraj: 550. Sifariş № 172

Nömrəyə məsul: Nail Əsgərov, Səmayə Rəsulova
Dizayner: Pərvin Sadiqov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.